RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 70 (8663) ÇƏRŞƏNBƏ, 7 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Müstəqil siyasətin təntənəsi

## İlham Əliyevin regionda yaratdığı yeni reallıqlar göstərir ki, Azərbaycanı öz yolundan döndərmək mümkün deyil



Bəşəriyyət yaranandan müharibəsiz ötüşməyib. İnsanlıq tarixi çoxlu sayda dəhşətli, ağrılı savaşlara şahidlik edib. Bu gün də planetimizin müxtəlif yerlərində xalqların taleyində dərin iz buraxan, ona ağır maddi-mənəvi zərbə vuran, məhrumiyyətlərə düçar edən qanlı münaqişələr, müharibələr hökm sürür.

### Torpaqlarımızın işğaldan azad edilməsinə istiqamətlənmiş çoxşaxəli fəaliyyət

Azərbaycan da müharibə, daha dəqiq desək, Ermənistanın işğal siyasəti ilə üzləşmiş, torpaqlarımızın bir qismi işğal olunmuşdu. Lakin xalqımız heç vaxt işğalla barışmadı, günlərin birində ərazilərimizin azad olunacağı ilə bağlı ümidini heç vaxt itirmədi. O günü isə Prezident İlham Əliyev yetişdirdi. Həyata keçirdiyi siyasətlə, atdığı addımlarla İlham Əliyev həmin tarixi yaxınlaşdırdı və ötən ilin 44 günlük Vətən müharibəsi xalqımızın milli mücadiləsinə çevrilərək işğal altındakı torpaqlarımızın azad edilməsi ilə nəticələndi.

Məlum olduğu kimi, İkinci Qarabağ müharibəsinə qədər cəmiyyətimizdə torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı müxtəlif çağırışlar edilirdi. Amma unudulurdu ki, müharibə başlayacağı təqdirdə biz yalnız Ermənistanla döyüşməyəcəkdik. Həm də torpaqlarımızın hərb yolu ilə azad olunacağı təqdirdə biz dünya erməniliyinə, erməni lobbisinə və təəssübkeşlərinə qarşı döyüşməli olacaqdıq. Ona görə Prezident İlham Əliyev Azərbaycana rəhbərliyinin ilk günündən bu məsələdə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq bütün bunları nəzərə aldı. Çünki atılan istənilən ehtiyatsız addım onsuz da ədalətsizliyin, ikili standartların baş alıb getdiyi, beynəlxalq hüququn işləmədiyi bir şəraitdə əleyhimizə işləyə bilərdi.

Bu gün dönüb geriyə baxanda görürük ki, İlham Əliyevin torpaqlarımızın azad edilməsinə istiqamətlənmiş fəaliyyəti kompleks xarakter daşıyıb. Bu illərdə ordumuzun döyüş imkanlarının artırılmasını prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayan dövlət başçısı Ermənistanın işğal siyasətinin beynəlxalq səviyyədə ifşa olunması üçün olduqca səmərəli siyasi-diplomatik fəaliyyət həyata keçirib. Bunun da nəticəsində yeni müharibənin olacağı təqdirdə dünya erməniliyinin başlada biləcəyi xarici təhdid və təzyiqlərin qarşısı alınıb, onlar tamamilə neytrallaşdırılıb.

Ardı 2-ci səh.

# Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyir

## Prezident İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə videomüraciəti



Aprelin 6-da Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Gebreyesusun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciəti təqdim olunub. Qeyd edək ki, tədbirdə 4 ölkənin dövlət və hökumət başçısının videomüraciəti yayımlanıb.

AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciətini təqdim edir.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus dedi:

- İndi isə pandemiya ilə bağlı təcrübəsi və pandemiyanın kəskin fazasının mümkün qədər tez bitməsi üçün hansı tədbirlərin görülməsinin vacib olması barədə danışmaq üçün sözü Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə verirəm.

Bax: səh. 2

# Dünya Bankı Azərbaycanda aparılan islahatlara dəstək verir

Azərbaycan Dünya Bankı ilə uzun illərdir bir çox istiqamətlərdə geniş əməkdaşlıq edir. Qarşılıqlı əlaqələr getdikcə dərinləşir, vacib məsələlər üzrə fikir mübadiləsi aparılır, birgə qərarlar və fəaliyyət planları qəbul olunur.

Dünya Bankının regional direktoru Sebastian Molineusun ölkəmizə növbəti səfəri, müvafiq qurumların rəhbərləri ilə görüşləri, ən başlıcası, Prezident İlham Əliyevin onu qəbul etməsi ölkə iqtisadiyyatının inkişafı üçün vacib olan birgə layihələr üçün geniş imkanlar yaradır. Prezident İlham Əliyev qəbulda bu münasibətləri belə dəyərləndirmişdir: “Bu vaxta qədər əməkdaşlıq çox uğurlu olmuşdur. Biz 47 layihə həyata keçirmişik və onların bəziləri hələ icra mərhələsindədir. Ümumi paket təxminən 4 milyard ABŞ dolları təşkil edir”.

Dövlət başçısı belə hesab edir ki, Dünya Bankının ölkə iqtisadiyyatının çox vacib sahələrinə, o cümlədən infrastrukturun inkişafına verdiyi dəstək faydalıdır. Bu sırada TANAP-ın maliyyələşdirilməsi və digər maliyyə institutlarına göstərilən kömək xüsusi əhəmiyyət daşıyır. Məsələn, TANAP-ın da daxil olduğu “Cənub qaz dəhlizi” artıq tam sistem olaraq fəaliyyət göstərir.

Belə dərin beynəlxalq əməkdaşlıq Azərbaycanın mövqeyinin güclənməsinə də təsir edir. “Doing Business” proqramında ölkəmiz 191 ölkə arasında 28-cidir. Bu o deməkdir ki, islahatlar dərinləşdikcə ölkə iqtisadiyyatının daha uğurlu inkişafı üçün münbit zəmin yaranır.

Ardı 4-cü səh.

# «Qarabağ»dakı norveçli tərəfdaşımız

## “Equinor” Azərbaycanda fəaliyyətini yeni enerji layihələri ilə genişləndirir

SOCAR-ın prezidenti Rövnəq Abdullayevin Norveçin “Equinor” (keçmiş “Statoyl”) şirkətinin yataqların işlənməsi və beynəlxalq hasilat üzrə vitse-prezidenti Al Kukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə də “Qarabağ” yatağının işlənməsindən bəhs olunub.

Ardı 4-cü səh.

# 2021-ci il sürətli yüksəliş ili olacaq

## Cənubi Qafqazın lideri kimi qalib Azərbaycanın qarşısında tam yeni dövr başlayır

2020-ci il Azərbaycan dövləti üçün böyük Zəfər ili kimi yadda qaldı. 2021-ci il isə ölkəmiz qarşısında tam yeni dövrün başlanğıcı kimi xarakterizə edilə bilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycan özünün ən şanlı dövrünü yaşayır. Çünki tarixdə heç vaxt bu qədər güclü olmayıb. Bu həm siyasi, həm iqtisadi, həm də hərbi gücdür. Dövlət məhz bu gücdən istifadə edərək qarşısında duran əsas vəzifəni uğurla reallaşdırır.

### Post-müharibə dövrü və qarşıda duran strateji vəzifələr

Bu gün həm də post-müharibə dövrünün ilk mərhələsini yaşamaqdayıq. Azərbaycan yeni tarixi hədəflərini müəyyən edir. Yəni qarşıda tam yeni bir dövr dayanır - böyük quruculuq, inkişaf dövrü... Düzdür, bu o qədər də asan proses deyil. Ən azından ona görə ki, düşmən 30 il ərzində işğaldan azad edilmiş ərazilərimizi darmadağın edib. Azərbaycan hər şeyi yenidən başlayacaq və ona görə də bu dövr şərəfli dövr olacaq.

Ardı 3-cü səh.

# Qarabağın builki yazı bir ayrı yazdır

## İndi Ağdam kəndlisi torpaqla təmasdan fərqli zövq alır



Son 30 ilin yazına bənzəməyən bir yaz gəlib Qarabağa. Bu yaz müzəffər Ordumuzun erməni işğalından azad etdiyi torpaqlarımızın azad nəfəs alması və uzun zamanlardan bəri qələbə həsrəti ilə yaşayan yurd nisgilli insanların möhtəşəm Qarabağ zəfərinə köklənən yüksək əhvali-ruhiyyəsi və xoş ovqatıyla bənzərsizdi.

Ardı 4-cü səh.

# “Peyvənddən sonra ürəyim rahatlandı, sanki mənə güc gəldi...”

## Əhali vaksinasiyada artıq fəal iştirak edir

◆ **Vaksinasiya prosesindən reportaj**

1950-ci ildən başlayaraq aprel ayının 7-si Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir. Bu tarix sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsi üçün birgə fəaliyyət göstərməyə xidmət edən əlamətdar gündür.

Ümumdünya Sağlamlıq Günü ərəfəsində yeni növ koronavirusa qarşı vaksinasiya həyata keçirilən ünvanlardan birinə - 26 nömrəli Mərdəkan Birləşmiş Şəhər Xəstəxanasına baş çəkdik.



### Gəlinxanım nənə: “Artıq rahatam”

Ağ lövhə üzərində iri qara hərflərlə “Peyvənd otağı” yazılmış qapının qarşısında yaşlı, orta yaşlı qadınların, kişilərin məsafə ilə düzüldüyü sıraya qoşuluruq. Hər kəs növbədə duraraq ağ xalatlı tibb bacısının adını çağırmasını, nəhayət, onun da vaksinasiya olunma məqamının çatmasını səbrlə gözləyir.

Yaşı 70-i haqlamış Gəlinxanım nənə ilə də elə bu peyvənd növbəsində tanış olub söhbət edirik. Yaşının bu sinninə baxmayaraq olduqca qıvraq və şux görünən Gəlinxanım nənə danışdıqca, həm də söhbətcil olduğu üzə çıxır. Deyir ki, Qala qəsəbəsinin sakinidir və koronavirusa qarşı peyvəndin ikinci dozasını vurdurmaq üçün bura gəlib. Azərbaycanda koronavirusa qarşı vaksinasiya başlayan kimi övladları təkid edib ki, o da mütləq peyvənd olunsun:

Ardı 6-cı səh.

# Xilaskarlar

## Vətən müharibəsində də, koronavirusla savaşda da həkimlər daim ön cəbhədə oldular

Xilaskar deyəndə ilk yada düşən Vətən müharibəsinin qəhrəmanları olur. Təbiidir, 30 il işğal altında qalan torpaqları öz qanları, canları bahasına xilas edən oğullara xilaskar deyirlər.



Bu müharibədə peşəsindən, sənətindən asılı olmayaraq hər kəs cani dildən iştirak etməyə, qələbəmizdə zərrə qədər də olsa, əməyinin olmasına çalışdı. Qələbəni bizə həm də bu birlik qazandırdı.

### Ellər loğman deyir sizə əzəldən...

Bir peşə sahibləri də var ki, onlar həmişə mübarizədədirlər və əksər hallarda xilaskar olurlar, qələbə qazanırlar. Amansız xəstəlikər üzərində qələbə qazanıb insan həyatını xilas etmək onların missiyasıdır. Peşələri budur... Əməkləri, xilaskar peşələri həmişə ədəbiyyatımızda, musiqimizdə vəsf olunub...

*Ellər loğman deyir sizə əzəldən,*
*Sınıq könülləri sizsiz düzəldən.*
*Ömrün baharını vaxtsız xəzəldən,*
*Qoru hikmətinlə hər zaman, həkim...*

Söhbət bir vaxtlar loğman, təbib, dövrümüzdə isə həkim adlanan peşədən və onların daşıyıcılarından gedir. Gəlin etiraf edək ki, son Vətən müharibəsindən əvvəlki dövrlərdə bir neçə il cəmiyyətdə həkimlərə inamsızlıq yaranmışdı. Təbii ki, neqativ hallar yox deyildi. Müəllim tədris etdiyi fəndə də hər hansı yanlışlığa yol verir. Mühasib də səhvi hesablamasında edə bilər. Peşə sahiblərindən yalnız minaaxtaranlar həyatlarında bircə dəfə səhv edir...

İnsana xəta xasdır. Həkimlərin səhvini bağışlaya bilməməyimiz də təbiidir. Çünki o yanlışlıq insan həyatı bahasına başa gəlir.

Ardı 6-cı səh.

# Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyir

## Prezident İlham Əliyevin videomüraciəti

Biz 1950-ci ildən etibarən hər il aprelin 7-də Ümumdünya Sağlamlıq Gününü qeyd edirik. Lakin 2021-ci ildə sağlamlığın əhəmiyyəti daha da artmışdır. Müasir, davamlı, yüksəkkeyfiyyətli səhiyyə sisteminə sahib olmaq hər bir ölkə üçün prioritetdir.

Hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir.

Bu arada COVID-19 pandemiyasının ikinci ili bütün dünyada səhiyyə sistemlərinə böyük təzyiq göstərməyə davam edir.

Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik.

Builki Ümumdünya Sağlamlıq Günü "Daha ədalətli və daha sağlam dünyanın qurulması" mövzusuna həsr olunub. Bu mənada peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanması bizi dərindən narahat edir. Bəzi ölkələr ehtiyacı olduğundan dəfələrlə çox peyvənd tədarük edir. Aydındır ki, belə şəraitdə digər ölkələr peyvənd qıtlığı ilə üzləşəcək.

Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürüb. Qətnamə bu il martın 23-də konsensus əsasında qəbul edilib.

Azərbaycan həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub. Biz və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmağını gözləyir.

Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq.

Ümumdünya Sağlamlıq Gününüz mübarək!

❖ ❖ ❖

**Tedros Adhanom QEBREYESUS:**

- Təşəkkür edirəm, Prezident Əliyev. Mən Sizin peyvəndlərə bərabərhüquqlu, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin olunması ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında göstərdiyiniz liderliyi alqışlayıram və peyvəndlərin ədalətli şəkildə paylanılması üçün tərəfimizdən daha çox işlərin görülməli olması ilə bağlı fikrinizlə razıyam.

# Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli 2947 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"ni (bundan sonra - Mərkəz) on beş gün müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. Müəyyən edilsin ki, Mərkəz elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılmasını, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferini və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılmasını həyata keçirən, innovativ inkişafın, o cümlədən startap layihələrin dəstəklənməsinə xidmət edən, elmi tədqiqatların nəticələrinin kommersiya və qeyri-kommersiya məqsədilə istifadəsi üçün transferinə, həmçinin bu nəticələrdən gəlir əldə etməyə yönəldilən, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsində, bu sahədə fəaliyyətin əlaqələndirilməsində iştirak edən publik hüquqi şəxsdir.

3. Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Mərkəzin nizamnaməsinin və nizamnamə fondunun miqdarının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla təsdiq edilməsi, onların dəyişdirilməsi;

3.1.2. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

3.1.3. Mərkəzin strukturunun təsdiq edilməsi;

3.1.4. Mərkəzin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

4.1. Mərkəzin strukturunu və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla nizamnaməsini təsdiq etsin;

4.2. fəaliyyətinin təmin edilməsi məqsədilə Mərkəzin maddi-texniki təminatı məsələlərinin həlli üçün tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 aprel 2021-ci il*

# İqtisadiyyat naziri Qlobal Texnologiya İdarəetməsi Sammitində iştirak edib



İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya İqtisadi Forumunun Qlobal Texnologiya İdarəetməsi Sammitinin onlayn formatda keçirilən Milli Süni İntellekt Strategiyasının Yaradılması sessiyasında iştirak edib.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, süni intellektin yaradılması və inkişafı potensialı barədə müzakirələrin aparıldığı sessiyada M.Cabbarov dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində rəqəmsal transformasiyanın, yeni texnologiyaların fəal tətbiqinin və bununla əlaqədar olaraq müasir təhsil və innovasiyaları təşviq edən münbit mühitin, yüksək rəqabətli, dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşan insan kapitalının formalaşdırılmasının və rəqəmsal texnologiyalar dövrünə hazırlanmasının önəmini vurğulayıb. Qeyd olunub ki, COVID-19 pandemiyası bu prosesi daha da sürətləndirib.

Bildirilib ki, Azərbaycanda rəqəmsallaşmanın inkişafına böyük önəm verilir. Nazir 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi inkişafına dair milli prioritetləri barədə məlumat verib, sənəddə ölkəmizin müasir innovasiyalar məkanına çevrilməsinin qarşıya hədəf kimi qoyulduğunu diqqətə çatdırıb. Ölkəmizdə "ağıllı" texnologiyaların tətbiqi işğaldan azad olunmuş ərazilərimizin yenidənqurulmasına və Böyük Qayıdışa töhfə verəcək.

Qeyd edilib ki, qlobal iqtisadiyyatda rəqabət qaydalarını dəyişən Dördüncü Sənaye İnqilabında Azərbaycanın mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr arasında yer almasının təmin edilməsi, rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların, layihələrin təhlilinin və koordinasiyasının həyata keçirilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılıb.

M.Cabbarov deyib ki, Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Azərbaycan Mərkəzinin (4SİM Afiləedilmiş Azərbaycan Mərkəzi) yaradılmasına dair Azərbaycan Respublikası Hökuməti ilə Dünya İqtisadi Forumu arasında razılaşma imzalanıb. 2021-ci il aprelin 1-dən fəaliyyətə başlamış 4SİM Afiləedilmiş Azərbaycan Mərkəzinin yaradılmasının əsası 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında niyyət protokolunun imzalanması ilə qoyulub. Azərbaycanda bu mərkəzin yaradılması rəqəmsal ekosistemin inkişafına, Dördüncü Sənaye İnqilabı texnologiyalarının sürətli mənimsənilməsinə və tətbiqinə təkan verəcək.

Sessiyada süni intellektin ticarət əməkdaşlığının inkişafına təsiri barədə sualı cavablandıran iqtisadiyyat naziri bu amilin məhsuldarlığın artırılmasında, istehsalın avtomatlaşdırılmasının sürətləndirilməsində, təchizat zənciri risklərinin idarə olunmasında, nəqliyyat-tranzit marşrutlarının və daşınan yüklərin həcminin optimallaşdırılmasında, ticarətin rəqəmsallaşdırılmasında mühüm rolunu vurğulayıb.

Qeyd edək ki, aprelin 2-də Azərbaycan və Türkiyə hökumətləri arasında Rəqəmsal Ticarət sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Bu sənəd ölkələrimizdə rəqəmsallaşma prosesinin inkişafına töhfə verməklə digər qonşu ölkələri də bu təşəbbüsə qoşulmağa, regional rəqəmsal əməkdaşlığa və ticarətin asanlaşdırılmasına təşviq edəcək.

Məlumat üçün bildirək ki, Dünya İqtisadi Forumunun Qlobal Texnologiya İdarəetməsi Sammiti ilk dəfədir keçirilir. Aprelin 6-7-də onlayn formatda təşkil edilən sammitə Yaponiya evsahibliyi edir və tədbirdə 50-dən çox hökumət, 600-dən artıq şirkət rəhbəri iştirak edir. Sammitdə sənayenin texnoloji transformasiyası, qlobal texnoloji idarəetmə və ən son texnologiyaların tətbiqi və sair məsələlər müzakirə olunur.

# Asiya İnkişaf Bankı ilə əməkdaşlığın inkişafına dair müzakirələr aparılıb



İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri xanım Kendis Makdeyqan ilə görüşüb.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, M.Cabbarov ölkəmizin Asiya İnkişaf Bankı ilə əməkdaşlığa böyük önəm verdiyini, bankın maliyyə-texniki dəstəyinin yüksək qiymətləndirildiyini vurğulayıb. Qeyd edilib ki, hazırda Asiya İnkişaf Bankının kredit ayırdığı yol şəbəkəsinin inkişafı üzrə layihələri icra edilməkdədir. Bankın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramının həyata keçirilməsində Azərbaycan 2021-ci il üzrə ev sahibi kimi fəal iştirak edir. Bildirilib ki, Asiya İnkişaf Bankı ilə 2022-2024-cü illər üçün Azərbaycanın ortamüddətli iqtisadi inkişaf prioritetləri və potensial sahələr üzrə əməkdaşlıq önəmlidir.

Görüşdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair prioritetlərin reallaşdırılması, regional əməkdaşlıq və sair istiqamətlər üzrə Asiya İnkişaf Bankı ilə tərəfdaşlıq imkanları diqqətə çatdırılıb.

AİB-in Azərbaycandakı Daimi Nümayəndəliyinin rəhbəri K.Makdeyqan ölkəmizdəki fəaliyyətindən məmnunluğunu ifadə edib, bankın Azərbaycanla əlaqələrinin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafı, bankın dövlət-özəl tərəfdaşlığı sahəsində texniki yardımı, dövlət müəssisələri ilə bağlı islahatlara dəstək imkanları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan və Türkiyə ordularının birgə əməliyyat-taktiki təlimləri keçiriləcək

Azərbaycan və Türkiyə Müdafiə nazirliklərinin birgə illik planına əsasən aprelin 8-də hər iki ölkənin hərbi qulluqçularının iştirakı ilə əməliyyat-taktiki təlimləri başlayacaq.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizdə təşkil olunacaq təlimlər Azərbaycan Ordusunun hərbi birliklərinin cavabdehlik zonalarının müxtəlif istiqamətlərində yerləşən ümumqoşun poliqonlarında keçiriləcək.

Təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir.

Təlimlər aprelin 9-dək davam edəcək.

# Azərbaycan və Türkiyə ordularının rabitə qoşunları birgə təlimlərə başlayıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Azərbaycan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə rabitə qoşunlarının birgə taktiki-xüsusi təlimləri başlayıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlər zamanı hərbi rabitəçilər təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi rayonlarına çıxarılaraq vahid rabitə sisteminin təşkil edilməsi üzrə tapşırıqları yerinə yetirirlər.

Müasir rabitə vasitələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi ilə keçirilən təlimlərdə qoşunların qarşılıqlı fəaliyyətinin təşkili, səhra idarəetmə məntəqələrinin açılması və digər tədbirlər icra olunur.

# Azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimizin mühəndis təminatı üzrə tədbirlərin icrası davam edir



İşğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrimizin hərtərəfli mühəndis təminatı üzrə tədbirlərin icrası davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri aparılır. Avtomobil və döyüş texnikası kalonlarının təhlükəsiz hərəkəti üçün yollar minalardan təmizlənir, bərpa olunur. Dağlıq ərazilərdə yerləşən bölmələrimizin mövqeləri istiqamətində yeni yolların çəkilməsi üzrə mühəndis işləri icra edilir. Bugünədək xeyli sayda mina və partlamamış döyüş sursatı utilizasiya edilib.

Azad edilmiş ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

# Azərbaycan ilə Türkiyə arasında insan hüquqlarının qorunması istiqamətində sıx əməkdaşlıq formalaşıb

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Türkiyə Respublikasının Baş ombudsmanı Şərəf Malkoçun dəvəti əsasında Ankara şəhərində rəsmi səfərdədir.



AZƏRTAC xəbər verir ki, ombudsman Səbinə Əliyeva əvvəlcə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbiri ziyarət edib.

Sonra ombudsman Səbinə Əliyeva Türkiyə Ombudsman təsisatının fəaliyyəti ilə yaxından tanış olub.

Azərbaycan ombudsmanı Səbinə Əliyeva və Türkiyənin Baş ombudsmanı Şərəf Malkoç ikitərəfli görüşdən sonra birgə mətbuat konfransı keçiriblər.

Azərbaycan ombudsmanı Səbinə Əliyevanın Türkiyəyə rəsmi səfərini yüksək qiymətləndirən Şərəf Malkoç iki qardaş ölkə arasında insan hüquqlarının qorunması istiqamətində əməkdaşlıq əlaqələrinin inkişafını yüksək dəyərləndirib. Diqqətə çatdırılıb ki, bu sahədə qarşılıqlı münasibətlər ikitərəfli formatda və beynəlxalq platformalarda davam edir. Tarixi Zəfər münasibətilə təbriklərini çatdıran Şərəf Malkoç bildirib ki, şanlı Azərbaycan Ordusu işğal altındakı əraziləri düşməndən azad etməklə 30 ilə yaxın yurd-yuvasından didərgin düşən günahsız azərbaycanlıların hüquqlarını bərpa edib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə ilə bütün sahələrdə olduğu kimi, insan hüquqlarının qorunması istiqamətində də sıx əməkdaşlıq əlaqələrinin formalaşdığını deyən ombudsman Səbinə Əliyeva vurğulayıb ki, görülən işlər, aparılan məqsədyönlü siyasət nəticəsində Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsi həyat gerçəkliyinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri uğurlu siyasət nəticəsində ölkələrimizin tarixi əlaqələri durmadan inkişaf edir, əməkdaşlıq əlaqələrinin səviyyəsi keyfiyyətcə yeni mərhələyə keçir.

Türkiyənin bütün dövrlərdə Azərbaycanın haqq işini daim dəstəklədiyini, hər zaman beynəlxalq tribunalardan ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyini vurğuladığını diqqətə çatdıran Səbinə Əliyeva deyib: "Böyük fəxarət hissi ilə deyə bilərik ki, Vətən müharibəsinin ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi. Türkiyə Prezidentinin açıq, birmənalı və sərt açıqlamaları, rəsmi Ankaranın daim Azərbaycanın yanında olması xalqımızı çox sevindirdi. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək Vətən müharibəsində parlaq Qələbəmizə zəmin yaratdı".

Şanlı Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi dövründə dəvəti əsasında İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyənin Baş ombudsmanı cənab Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfər missiyasını tarixi hadisə, əsl qardaşlıq yanaşması kimi dəyərləndirən Səbinə Əliyeva bildirib ki, Azərbaycan və Türkiyə ombudsmanları təcavüzkar Ermənistan terrorunun hədəfinə çevrilən Gəncə şəhərində birgə faktaraşdırıcı fəaliyyət həyata keçiriblər. Bu faktaraşdırıcı missiya ilə bağlı Bakıda Ombudsman Aparatında brifinq təşkil edilib və bu səfərin nəticəsi olaraq Azərbaycan və Türkiyə ombudsmanları birgə bəyanat qəbul ediblər. Bu bəyanatda Ermənistan tərəfindən ölkəmizin müxtəlif ərazilərinin mütəmadi olaraq atəşə tutulması, mülki əhali arasında tələfat və çoxsaylı dağıntılarla nəticələnən hücumlar qəti şəkildə pislənib, dünya ictimaiyyətinə bu hadisələrə ədalətli mövqe sərgiləmək üçün çağırış edilib.

Xatırladaq ki, Türkiyə Respublikasının Ombudsman Təsisatı Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi müharibə cinayətləri ilə bağlı xüsusi hesabat hazırlayıb.

# Müstəqil siyasətin təntənəsi

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev bu barədə deyib: "Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu".

## Azərbaycanın güclənməsinə xidmət edən siyasət

Azərbaycan işğal siyasətindən əl çəkməyən, beynəlxalq hüquqa məhəl qoymayan Ermənistanı güc yolu ilə cəzalandırdı. Qeyd etdiyimiz kimi İlham Əliyev buna nail olmaq üçün hazırlıq işlərini müxtəlif istiqamətlərdə həyata keçirdi və qarşıda duran taleyüklü problemi sərkərdə qətiyyəti ilə həll etdi.

Əlbəttə, bu yolda Azərbaycanın güclənməsinə xidmət edən ən mühüm məsələlərdən biri İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasət oldu. Məlumdur ki, dünyada dövlətlərin nüfuzunu müəyyən edən bir sıra səbəblər var. Bunların arasında ən mühümü təbii ki, əhəmiyyətindən asılı olmayaraq hər bir sahədə yürüdülən siyasətin məzmunu və mahiyyətidir. Bu gün dövlətin nüfuzu ilə yanaşı, həm də ona göstərilən beynəlxalq etimadı da məhz bu səbəb meydana çıxarır. Digər tərəfdən, bütün dövlətlər milli maraqlarına cavab verən siyasət həyata keçirməyə çalışır, lakin hamısı buna nail ola bilmir.

Azərbaycan böyük dövlət deyil, amma İlham Əliyevin yürütdüyü müstəqil siyasətin əhatə dairəsi böyükdür. Müstəqil enerji və iqtisadi siyasət yürütmək, qlobal məsələlərdə öz mövqeyini ifadə etmək bugünkü reallıqlar baxımından kifayət qədər mühüm məsələlərdir. Məhz müstəqil siyasətin nəticəsidir ki, Azərbaycanın karbohidrogen ehtiyatları Avropa və dünya bazarlarına çatdırılır. Müstəqil siyasətin nəticəsidir ki, artıq 3 peykimiz fəzadadır. Azərbaycan o dövlətlərdəndir ki, xarici siyasətini tam müstəqil həyata keçirir və Ermənistan kimi kənardan təlimat almır. "Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsas məsələdir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi" deyə Prezident İlham Əliyev bu barədə danışarkən bildirib.

Azərbaycan Ermənistanla aparılan danışıqlarda da tam müstəqil siyasət yürütdü. Bu illərdə ölkəmizə qarşı çox təzyiqlər oldu. Ermənistanın işğal siyasətinə hüquqi don geydirilməsi üçün respublikamıza bir çox siyasi basqılar oldu. Lakin Azərbaycan milli maraq və mənafelərinə zidd olan heç bir razılaşmaya getmədi.

Bu gün Azərbaycan hər bir sahədə müstəqil siyasətin təntənəsini yaşayır. Bu siyasəti inamla həyata keçirən İlham Əliyev Vətən müharibəsinin qalib sərkərdəsi kimi həm də Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Regionda həyata keçiriləcək yeni layihələrin, çəkiləcək kommunikasiyaların müəllifi də Azərbaycandır. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycanı öz müstəqil yolundan döndərmək mümkün deyil.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanla İraq arasında münasibətlərin qədim tarixi var

Azərbaycanla İraq arasındakı münasibətlərin qədim tarixi var. Tarixən bizi birləşdirən dini, mədəni əlaqələrimiz olub. Azərbaycan alimləri İraqda təhsil alıblar.



AZƏRTAC xəbər verir ki, bu sözləri aprelin 4-də İraq parlamentinin Xarici əlaqələr komitəsinin sədri Şerko Məhəmməd Saleh Əhməd Kadir Mir Vaisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib.

QMİ sədri qeyd edib ki, keçmiş sovetlər dövründəki çətinliklərə baxmayaraq, Azərbaycan dindarları İraqdakı müqəddəs məkanları ziyarət edirdilər. İraq İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində daim Azərbaycanı dəstəkləyir. İraq Azərbaycanın ərazi bütövlüyünü daim tanıyıb və dəstəkləyib. “Ərazilərimizin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu və bu işğal 30 ilədək davam etdi. Erməni işğalçıları Qarabağdakı dini abidələrimizi dağıdıblar. Oradakı məscidlərimizdə donuz saxlamaqla bir növ islam dininə iman gətirənləri təhqir edirdilər. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində doğma torpaqlarını işğaldan azad etdi. Erməni dini rəhbərləri guya Qarabağdakı erməni kilsələrinin dağıdılması ilə əlaqədar digər dinlərin nümayəndələri ilə bərabər, islam dini liderlərinə də müraciətlər edirlər. Vətən müharibəsi dövründə biz dünyanın bir çox ölkələrindən dəstək məktubları alırdıq. Çox xoşdur ki, bu ölkələr arasında İraq da var. Biz bunu dini bağlılıq, qardaşlıq baxımından yüksək dəyərləndiririk. Bu, bizim işimizin haqq işi olduğunu bir daha təsdiqləyir”, - deyə Allahşükür Paşazadə əlavə edib.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Şerko Məhəmməd Saleh Əhməd Kadir Mir Vais ölkələrimiz arasındakı münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. O deyib: “İraq siyasi baxımdan sabitləşib. İraqa çətin günlərində dəstək verən ölkələrdən biri də Azərbaycandır. Bu baxımdan Azərbaycanla əməkdaşlıq bizim üçün önəmlidir. Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində İraqı daim dəstəkləyib. İraq da 44 günlük şərəfli mübarizəsində Azərbaycana dəstək verdi. İraq parlamentində Azərbaycanla münasibətlərin daha da inkişafı üçün mütəmadi işlər görülür”.

Görüşdə həmçinin şəhidlərimizin əziz xatirəsi yad edilib, ruhlarına dualar oxunub.

# Erməni vandalizmi beynəlxalq ictimaiyyət tərəfindən kəskin qınanmalıdır

## İƏT Təmas Qrupunun nümayəndələri Ağdamda erməni vəhşiliklərinin şahidi olublar

Aprelin 6-da İslam Əməkdaşlıq Təşkilatının Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələri işğaldan azad olunmuş Ağdam şəhərinə səfər edib.





AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti Ağdam şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələri ilə tanış olublar. Əvvəlcə Ağdam şəhərindəki avtovağzal və texniki peşə məktəbinin binalarının qalıqlarına baxış keçirilib. Ağdam şəhər sakini Zülfü Qasımov məlumat verib ki, avtovağzal binası 1991-ci ilin fevralında erməni terrorçuları tərəfindən partladılıb. Avtovağzalın yaxınlığındakı peşə məktəbinin binası keçmiş SSRİ dövründə təhsilin səviyyəsinə və texniki bazasına görə ən qabaqcıl təhsil ocaqlarından idi. Erməni vandalları Ağdamdakı bütün binalar kimi peşə məktəbinin binasını da yerlə yeksan ediblər.

Xarici nümayəndələr sonra Ağdam Cümə məscidində ermənilərin törətdikləri barbarlıqla tanış olublar. Onlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid “Qarabağ məscid memarlığı” məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələri məsciddə namaz qılıb, dualar ediblər.

Ağdam şəhərinin viran qoyulmuş mərkəzi küçəsi ilə tanış olan nümayəndə heyətinə məlumat verilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada 15 mindən artıq fərdi yaşayış evi, 31 çoxmərtəbəli bina olub, 42 mindən çox insan yaşayıb. Ağdamda 17 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi xarabalıqlar qalıb.

Sonra nümayəndə heyəti Ağdamın I Şəhidlər xiyabanını ziyarət ediblər. Məlumat verilib ki, burada I Qarabağ müharibəsində şəhid olan qəhrəman vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib.

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qəbri də buradadır.

Ermənilər xislətlərinə uyğun olaraq, Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar.

Sonra səfər iştirakçıları Ağdam şəhərindəki İmarət qəbiristanlığına gəliblər. Məlumat verilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar.

İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən xan sarayında inək və donuz saxlanılıb.

Bildirilib ki, məscidlərin, tarix memarlıq abidələrinin dağıdılması, mal-qara saxlanılaraq təhqir edilməsi erməni vandalizminin bariz nümunəsidir və bu fakt təkcə Azərbaycanın deyil, ümumilikdə dünyanın mədəni irsinə barbar münasibət kimi beynəlxalq ictimaiyyət tərəfindən kəskin qınanmalıdır.

Diqqətə çatdırılıb ki, Ağdamda məhv edilən idman infrastrukturundan biri də bu ərazidə yerləşən rayonun “Qarabağ” futbol klubunun meydançası olan “İmarət” stadionudur. Vaxtilə stadionda restoran və futbolçuların bazası da vardı. Yaxınlıqda isə Xurşidbanu Natəvanın heykəli var idi. İndi onlardan əsər-əlamət qalmayıb. Bir çox el şənlikləri, festivallar, eləcə də mədəniyyət və incəsənət xadimlərinin konsertləri məhz “İmarət” stadionunda təşkil edilərdi.

Səfər zamanı İslam Əməkdaşlıq Təşkilatının Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələrini Azərbaycan Xarici İşlər Nazirliyinin əməkdaşları müşayiət edib.



# 2021-ci il sürətli yüksəliş ili olacaq

## Cənubi Qafqazın lideri kimi qalib Azərbaycanın qarşısında tam yeni dövr başlayır

***Əvvəli 1-ci səh.***

Bu səbəbdən də Prezident İlham Əliyev ilk növbədə işğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması məsələsini strateji vəzifə olaraq müəyyən edib. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması məqsədilə “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması və 2021-ci ilin dövlət büdcəsindən ilkin olaraq 2,2 milyard manat vəsaitin ayrılması da bunu bir daha təsdiqlədi.

İlin əvvəlində Prezidentin imzaladığı növbəti mühüm sərəncamla “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” proqramında nəzərdə tutulmuş inkişaf kursunun 5 prioritetindən birinin Qarabağa böyük qayıdışın təmin edilməsi proqramı kimi müəyyənləşməsi İlham Əliyevin bu məsələyə nə qədər böyük önəm verdiyini göstərdi.

Yeni dönəmdə əsas hədəflərdən biri də investisiyaların işğaldan azad edilmiş ərazilərimizə cəlb edilməsidir. Prezident iştirak etdiyi bütün konfranslarda, keçirdiyi görüşlərdə tərəfdaş ölkələrə, şirkətlərə mesaj ünvanlayaraq onları Qarabağa investisiya qoymağa dəvət edir. Çünki Vətən müharibəsinədək Azərbaycan bütün investorlar üçün ən cəlbedici məkanlardan biri sayılırdı. Bu gün isə böyük investorlara daha yaxşı imkanlar yaranıb. İşğaldan azad edilmiş ərazilərimizdə istənilən infrastruktura investisiyanın yatırılması böyük iqtisadi divident gətirə bilər.

Göründüyü kimi, qarşıdakı dövrdə ölkəmiz qarşısında böyük quruculuq, abadlıq işləri dayanır. Bu da əlbəttə ki, Azərbaycan tarixinə dirçəliş ili kimi düşərək yaddaşlarda əbədi qalacaq.

### Pandemiya ilə mübarizə, sosial-iqtisadi islahatlar

Ötən il dünyanın siyasi, iqtisadi mənzərəsi həm də ziddiyyətli olması ilə yadda qaldı. Koronavirus pandemiyasının yaratdığı problemlər üzündən 2020-ci il dünya iqtisadiyyatı üçün “itirilmiş il” hesab oluna bilər.

Məhz pandemiya ilə mübarizə tədbirləri dövlətlərin iqtisadiyyatına mənfi təsirlərini göstərdi və sosial çətinliklər xalqların həyatına, dövlətlərin fəaliyyətinə təsirsiz ötüşmədi. Azərbaycan iqtisadiyyatında da tənəzzül yaşansa da, Prezidentin reallaşdırdığı qabaqlayıcı tədbirlər, islahatlar ölkəmizin bu çətinlikdən çox az itki ilə çıxmasını şərtləndirdi.

Sevindirici haldır ki, inkişaf etmiş dövlətlərin aciz vəziyyətə düşdüyü pandemiya şəraitində də Azərbaycan inkişaf kursunu davam etdirir. Belə ki, ölkəmiz örnək xarakterli sosial-iqtisadi siyasəti ilə diqqəti cəlb edir, inkişafa xidmət edən kompleks islahatlar davamlı xarakter daşıyır və respublikamız qlobal müstəvidə həmrəyliyə, əməkdaşlığa xidmət edən məqsədyönlü təşəbbüslər ortaya qoyur.

Dövlət idarəçiliyi sistemini daha da təkmilləşdirən İlham Əliyevin bu il də struktur və kadr islahatlarının şahidi oluruq. Aprelin 5-də Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən Prezident bir daha bu məsələlərə toxunaraq qeyd etdi ki, hər bir yerdə müasir menecment, idarəetmə olmalıdır. Son vaxtlar aparılan kadr islahatları da onu göstərir: “Harada ki, müasir menecment, müasir idarəetmə, dürüstlük, təmizlik, vicdan varsa, orada nəticə də olacaqdır”.

Bu fikri ilə dövlət başçısı bir daha struktur və kadr islahatlarının davam etdiriləcəyini və bütün sahələrdə yeniliklərin, müasir idarəetmənin tətbiqinin davamlı olacağını göstərdi.

Beləliklə, görüləcək işlər bir daha təsdiqləyir ki, Azərbaycan bundan sonra da İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişafını davam etdirəcək. Ərazi bütövlüyünü təmin etmiş Azərbaycan bu gün daha güclüdür və dövlətin iqtisadi qüdrəti istənilən islahatın həyata keçirilməsi üçün real zəmin yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## *Pakistanlı diplomat:* “İƏT üzvlərini Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasına kömək etməyə çağıracağıq”

Biz - İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Təmas Qrupunun üzvləri 44 günlük müharibədən sonra ilk dəfədir Azərbaycanın azad olunmuş ərazilərinə səfər edirik. Bu yerlərdə təxminən 30 il ərzində ermənilər tərəfindən kifayət qədər dağıntılar törədilib. Biz öz gözümüzlə gördük ki, Ağdam şəhəri hansı vəziyyətdədir.



AZƏRTAC xəbər verir ki, bunu Pakistanın İƏT-də və digər beynəlxalq təşkilatlardakı daimi nümayəndəliyinin rəhbəri Rizvan Səid Şeyx Ağdamda jurnalistlərə müsahibəsində bildirib.

O, Azərbaycanın qazandığı zəfərlə bağlı təbriklərini çatdıraraq deyib: “İƏT hər zaman Azərbaycana siyasi dəstək verib. Pakistan dövləti də Azərbaycana öz dəstəyini göstərib. Artıq sülh bərpa olunub. Bundan sonra yenidənqurma işlərinə start veriləcək. Gələn il İslamabadda İƏT xarici işlər nazirlərinin görüşü keçiriləcək. Həmin görüşdə biz də Təmas Qrupunun üzvləri olaraq gördüklərimiz barədə məruzə ilə çıxış edəcəyik. Belə bir çağırış etmək niyyətindəyik ki, İƏT-ə üzv olan bütün ölkələr Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin iqtisadi cəhətdən bərpasına kömək etsinlər”.

## *Qambiyalı diplomat:* “Gördüklərimiz bizi dəhşətə gətirib”

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Təmas Qrupu olaraq bizə işğaldan azad edilmiş ərazilərdə baş vermiş dəhşətli cinayətlərin şahidi olmaq maraqlı idi. Biz bu gün erməni vəhşiliyini öz gözlərimizlə görüb, şahidi olduq.

AZƏRTAC xəbər verir ki, bunu Qambiya Respublikasının İslam Əməkdaşlıq Təşkilatında (İƏT) daimi nümayəndəsinin müavini Jah Abu Bakir Ağdama səfəri zamanı jurnalistlərə açıqlamasında bildirib.

O, Ağdamda gördüklərindən təəssüfləndiyini ifadə edərək deyib: “30 il ərzində bu ərazilərin belə vəziyyətdə olması bizi dəhşətə gətirib. Biz hisslərimizi ifadə edə bilmirik. Bura ruhlar şəhərinə bənzəyir. Bütün dünyanın diqqətinin burada olması vacibdir. Biz İƏT olaraq hər zaman Azərbaycana dəstək vermişik, bu gün də dəstək göstəririk”.

# Təmas Qrupunun nümayəndələri Gəncədə Ermənistanın müharibə cinayətləri ilə tanış olublar





Aprelin 6-da İslam Əməkdaşlıq Təşkilatının Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələri Ermənistanın müharibə cinayətləri ilə yaxından tanış olmaq üçün Gəncədə səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Təmas Qrupuna daxil olan doqquz ölkənin nümayəndəsini Prezident Administrasiyasının məsul əməkdaşı Fərhad Məmmədov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov müşayiət ediblər.

Səfərin məqsədi Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələrini Azərbaycanın ikinci böyük şəhəri Gəncənin ayrı-ayrı məkanlarında Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Qonaqlar oktyabrın 11-də Gəncədə erməni terroru nəticəsində çoxsaylı insanın öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Oktyabrın 11-də Ermənistan silahlı qüvvələrinin Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 nəfər həlak olub, 35-dən çox şəxs yaralanıb, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Növbəti müharibə cinayəti isə oktyabrın 17-də törədilib. Düşmənin Gəncəyə xain hücumu nəticəsində 13 nəfər həlak olub, 48-dən çox şəxs xəsarət alıb.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə “Toçka-U”, “Smerç”, “Skad” və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.





İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibinin İqtisadi məsələlər üzrə köməkçisi Əhməd Kavrsa Sengendo və Qambiya Respublikasının İslam Əməkdaşlıq Təşkilatında (İƏT) daimi nümayəndəsinin müavini Jah Abu Bakir jurnalistlərə açıqlamalarında erməni terrorunu sərt şəkildə qınadıqlarını bildirib, dinc azərbaycanlı əhalinin məqsədli şəkildə hədəf alınmasının insanlıqla bir araya sığmadığını diqqətə çatdırıblar. Onlar İƏT-in daim Azərbaycana dəstək olduğunu və bu dəstəyin bundan sonra da davam edəcəyini vurğulayıblar.

Nümayəndə heyəti həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq erməni terroru nəticəsində dağıdılmış yaşayış binasının ətrafına gül dəstələri düzüblər.

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Qarabağın builki yazı bir ayrı yazdır

## İndi Ağdam kəndlisi torpaqla təmasdan fərqli zövq alır

*Əvvəli 1-ci səh.*

Al-əlvan çiçək örpəyinə bürünən meyvə bağlarını, zümrüd libaslı taxıl zəmilərini, göz işlədikcə uzanan göy çəmənləri seyr etdikcə ruhumuza sığal çəkən təbiətlə bu xoş təmasdan qeyri-adi bir məmnunluq duyuruq.

Qarabağın coğrafi mərkəzi olan Ağdamda da bu yaz günündə gerçək bir bayram əhvali-ruhiyyəsi yaşanır. Taleyini həyat qaynağı olan bərəkətli torpağa, halal zəhmətə bağlayan, firavan həyatı, xoş güzəranı üçün əməyinə güvənən Ağdam kəndlisi cari ilin yaz-tarla işlərinə minbir həvəslə başlayıb. Məqsəd uzun çəkən həsrətdən sonra qovuşduğumuz torpaqların hər qarışından səmərəli istifadə etməklə bolluq yaratmaq, ölkənin iqtisadi qüdrətinə sanballı Qarabağ töhfəsi verməkdir.

Bərəkətli çöllərdə yaz-tarla işlərinin vüsət aldığı bu günlər Ağdamda olduq. Təsərrüfatlarda iş başdan aşırdı. Dondurma şumu edilib, qış aratına qoyulmuş əkin sahələrinə mala çəkilib, çiyid səpininə hazırlanırdı. Keçən il müharibənin yaratdığı çətinliklərə baxmayaraq, ağdamlılar döyüşlərdə olduğu kimi, əmək meydanında da qəhrəmanlıq göstərmişlər. 2120 hektardan 7096,4 ton pambıq istehsal edilmiş, məhsuldarlıq 33,5 sentnerə çatmışdır. Ötən ilin obyektiv çətinliklərini, mövcud reallıqları nəzərə alaraq deməliyik ki, Ağdam pambıqçısının qazandığı bu nəticə kiçik deyil.

Buna baxmayaraq, pambıqçılıq sahəsində ilin hədəfləri daha böyükdür. Bu il pambıq əkən torpaq istifadəçiləri ilə 2282 hektar üçün müqavilə bağlanıb. Çiyid səpininə hazırlıq artıq başa çatıb. Səpin texnikası etibarlı təmir edilib, tələb olunana qədər keyfiyyətli çiyid, müxtəlif herbisidlər, mineral gübrələr gətirilib.

Builki yazın fərəh doğuran, ürəkaçan bir əlaməti də işğaldan azad edilmiş ərazilərdə əkin işlərinə start verilməsidir. 1993-cü ildən bəri erməni quldurlarının işğalı altında qalan ərazilərimizi indi özümüz əkib-becərməyə başlamışıq. Artıq 2046 hektarda taxıl əkilmişdir. Bu imkan təbii ki, getdikcə sürətlə artacaqdır. Mütəxəssislərin rəyinə əsasən demək olar ki, həmin taxıl zəmilərindən yüksək məhsuldarlıq gözlənilir.

Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ramal Məmmədovla söhbətlərimizin əsas qayəsi kəndliyə davamlı dövlət dəstəyi ilə bağlı oldu. Həmsöhbətimiz ildən-ilə artan bu dəstəyin nəticələrini minnətdarlıqla vurğuladı: “Prezident İlham Əliyev cəbhə bölgəsi olduğuna görə Ağdama hər zaman xüsusi qayğıkeşlik və diqqət göstərmişdir. Məhz bu münasibət ağdamlılara güclü maddi və mənəvi stimul vermiş, bizi böyük qələbənin tezliklə qazanılacağına inandırmışdır. Nə xoş ki bu inam ordumuzun parlaq qələbəsi ilə doğruldu, Qarabağ işğaldan azad edildi. İndi biz uzun illərin həsrətindən sonra doğma yurdumuza qovuşmuşuq. Ürəyimizin oduyla, əllərimizin hərarətiylə, isti nəfəsimizlə bizim üçün qəribsəmiş torpaqlarımızı yenidən əkib-becərməyə başlamışıq. İnanın ki, səmimi deyirəm, torpaqla işləmək ağır olsa da, bu, heç kəsi yormur, əksinə, adamlar bu təmasdan zövq alır, sanki rahatlıq tapırlar. İndi yaz-tarla işlərinin qızğın çağıdır. Taxıl zəmilərində becərmə işləri gedir, zəmilərə yemləmə gübrəsi verilir, suvarılır, alaq otlarına qarşı mübarizə aparılır. Pambıqçılıqda mühüm təsərrüfat kampaniyası sayılan çiyid səpininə yaxın günlərdə başlayacağıq. Bütün hazırlıq işləri artıq başa çatdırılmışdır. Tərəvəz əkini sahələrində də becərmə işləri mütəşəkkilliklə davam edir”.

Ramal Məmmədovla söhbətdən onu da öyrəndik ki, keçən təsərrüfat ilində Ağdam rayonunun 15 kənd ərazi komissiyası üzrə 8203 istehsalçıya 21 min 962,8 hektar əkin sahələrinə görə 3,7 milyon manatdan çox subsidiya hesablanmış və həmin vəsait torpaq istifadəçilərinin kart hesablarına köçürülmüşdür. Həmçinin süni mayalanma yolu ilə alınan 1829 baş buzovun hər birinə görə fermerə 100 manat həcmində subsidiya verilmişdir. Pambıqçılıqda isə 521 min 800 manat subsidiya ödənilmişdir. Barama istehsalçıları da dövlətdən 12 min 450 manat subsidiya almışlar. Bunlardan əlavə, 2020-ci ildə rayonun ehtiyac duyulan ərazilərində dövlət vəsaiti hesabına 22 subartezian quyusu qazılıb istifadəyə verilmiş, dizel yanacağının qiymətinin artması ilə əlaqədar əkin əmsallarına yenidən baxılmış, torpaq istifadəçilərinə dövlət dəstəyi daha da gücləndirilmişdir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Türkdilli dövlətlər arasında tranzit daşımaların artırılması məsələsi müzakirə edilib

Aprelin 6-da “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də (ASCO) Türk Dünyası Əməkdaşlıq Şurasının (TDƏŞ) təşkilatçılığı ilə Türkiyə və Özbəkistan respublikalarının nümayəndə heyətləri ilə görüş keçirilib.

Görüşdə ASCO-nun sədri Rauf Vəliyevin başçılıq etdiyi heyət, TDƏŞ Baş katibinin müavinləri Mirvohid Azimov və Qismət Gözəlov, Özbəkistanın nəqliyyat nazirinin müavini Abdusamat Muminov, bu ölkənin gömrük və nəqliyyat qurumlarının nümayəndələri, Türkiyə Beynəlxalq Daşıyıcılar Assosiasiyasının direktorlar heyətinin rəhbəri Alper Özel iştirak ediblər.

R.Vəliyev qonaqlara 162 illik tarixi olan qurumun fəaliyyəti, iştirak etdiyi layihələr və gələcək planlar barədə geniş məlumat verib. Bildirib ki, ASCO dənizdə yükdaşımalarla yanaşı, neft-qaz sahəsində gəmiçilik xidmətləri də göstərir. O, həmçinin beynəlxalq ticarətin inkişafı, tranzit imkanlarının daha da genişləndirilməsi məqsədilə Azərbaycanın həyata keçirdiyi irimiqyaslı layihələrdən də söz açıb. Qeyd edib ki, Xəzər dənizi üzərindən yüklərin daşınması və bu sahənin inkişafına töhfə vermək üçün ASCO da öz növbəsində türkdilli dövlətlərlə əməkdaşlığa hazırdır.

Daha sonra TDƏŞ Baş katibinin müavinləri Mirvohid Azimov və Qismət Gözəlov, Özbəkistanın nəqliyyat nazirinin müavini Abdusamat Muminov və digər şəxslər çıxış edərək türkdilli dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi, tranzit daşımalarının artırılması, məlumat mübadiləsinin gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsindən sonra qonaqlar ASCO-nun inzibati binasında yaradılan 44 günlük Vətən müharibəsinə həsr olunan interaktiv “Zəfər” guşəsi, ASCO-nun tarixini əks etdirən “Üç əsrin şahidi” muzeyi ilə yaxından tanış olublar.

# KOBİA “Brand Award Azerbaijan”ın rəsmi tərəfdaşı olub

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) “Caspian Energy Club”un (CEC) təşkil etdiyi beşinci “Brand Award Azerbaijan” milli mükafatının rəsmi tərəfdaşı qismində çıxış edəcək.

Bu barədə AZƏRTAC-a “Caspian Energy Club”un sədri və baş icraçı direktoru Telman Əliyev bildirib. O qeyd edib ki, “Brand Award Azerbaijan” müsabiqəsinin əsas məqsədi yerli brendlərin tanınmasına, kiçik və orta biznesə bu istiqamətdə dəstək verməkdir. “Brand Award” və “Brand Award Azerbaijan” ticarət nişanları dünyanın 50 ölkəsində “Caspian Energy Club”a məxsusdur.

“KOBİA və “Caspian Energy Club” arasında uzunmüddətli, səmərəli əməkdaşlıq mövcuddur. Agentlik hər zaman biznes-hökumət dialoqunun inkişafı istiqamətində aktiv iştirak edib, bu sahədə uğurlu addımlar atmaqdadır. KOBİA-nın “Brand Award Azerbaijan” milli mükafatını rəsmi tərəfdaş qismində dəstəkləməsi bunun daha bir əyani nümunəsidir”, - deyə T.Əliyev vurğulayıb.

Qeyd edək ki, “Brand Award Azerbaijan” milli müsabiqəsində Azərbaycanın yerli korporativ, xidməti və məhsul brendləri arasında 2021-ci ilin ən tanınan 50 brendi seçilərək mükafatlandırılacaq. Səsvermə aprelin 26-dan mayın 23-dək “www.brandaward.az” saytında keçiriləcək. Mükafatın təqdimetmə mərasimi isə onlayn formatda iyunun 1-də baş tutacaq.

“Brand Award Azerbaijan” milli müsabiqəsində qalib gələn 50 brend, həmçinin Xəzər-Qara dəniz regionundakı ölkələrdə keçirilən “Brand Award” müsabiqələrində qalib olan həmin ölkələrin milli brendləri ilin sonunda yekun “Brand Award International” müsabiqəsində birbaşa iştirak etmək imkanı əldə edəcək.

Sıralarında 50 ölkədən 5000-dən çox şirkət və təşkilatı birləşdirən “Caspian Energy Club” 2002-ci ilin iyununda yaradılıb. “Biznes-hökumət” dialoqunun fəal iştirakçısı olan “Caspian Energy Club”un əsas məqsədi Azərbaycanda və klubun fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir. Biznes-netvorkinq üçün beynəlxalq platforma olan “Caspian Energy Club” mütəmadi olaraq müxtəlif tədbirlər təşkil edir. Mənzil-qərargahı Bakıda yerləşən “Caspian Energy Club”un Gürcüstan və Qazaxıstanda rəsmi nümayəndəlikləri, həmçinin dünyanın müxtəlif ölkələrində səlahiyyətli nümayəndələri var.

# Aqrar Sığorta Fondu ASA ilə əməkdaşlığa başlayır

Azərbaycan Sığortaçılar Assosiasiyası (ASA) ilə Aqrar Sığorta Fondu arasında görüş keçirilib.



Aqrar Sığorta Fondundan verilən məlumata görə, görüşdə növbəti mərhələdə birlikdə həyata keçirilməsi nəzərdə tutulan layihələr müzakirə edilib. Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev bu əməkdaşlığın növbəti mərhələdə sığorta sektorunun inkişafı ilə bağlı prioritetlərin birgə həyata keçirilməsinə təkan verəcəyini bildirib. İcraçı direktor vurğulayıb ki, sığorta sektoruna aid olan bütün qurumların imkanlarını vahid istiqamətdə dəyərləndirmək və bununla da bazarın inkişaf dinamikasına təkan vermək ASA-nın başlıca prioritetidir.

Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov da öz növbəsində əldə olunmuş anlaşmanın ölkədə yeni tətbiq edilməkdə olan aqrar sığorta mexanizminin inkişafına, mövcud və potensial sığortaolunanlarda aqrar sığorta vərdişlərinin formalaşmasını stimullaşdıracağına əminliyini qeyd edib.

Görüşün sonunda iki qurum arasında həm aqrar sığorta xidmətlərinin, həm də ümumilikdə yerli sığorta bazarının inkişafına hədəflənən qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

# “Qarabağ”dakı norveçli tərəfdaşımız

## “Equinor” Azərbaycanda fəaliyyətini yeni enerji layihələri ilə genişləndirir

*Əvvəli 1-ci səh.*

Bu iki şirkət layihəni bərabər pay bölgüsü əsasında həyata keçirir. Görüşdə eləcə də “Dan Ulduzu”-”Əşrəfi”-”Aypara” perspektivli strukturlarında aparılmış ilkin kəşfiyyat işlərinin nəticələri və növbəti addımların planlaşdırılması müzakirə edilib.

Adıçəkilən üç perspektivli strukturda kəşfiyyat işlərinə 2018-ci ilin ikinci yarısında başlanıb. 2019-cu ildə burada ikiölçülü və üçölçülü seysmik kəşfiyyat işləri tamamlanıb. Nəticələr 2020-ci ildə emal olunub, hazırda onların təhlili davam edir. İnterpretasiya prosesinin ilkin yekunları bu strukturlarda neft-qaz ehtiyatlarının gözlənildiyindən daha yüksək olduğunu göstərir. Qarşıdakı dövrdə ehtiyatların dəqiqləşdirilməsi məqsədilə kəşfiyyat qazması həyata keçirilə bilər.

Yeni perspektivli strukturlarda əldə olunmuş müsbət nəticələrin “Qarabağ” layihəsinin inkişaf planına yenidən baxmaq zərurətini yaratması mümkündür.

Bunun üçün SOCAR və “Equinor” şirkətlərinin birgə işçi qrupu yaxın həftələrdə layihənin davamı ilə bağlı müxtəlif variantları nəzərdən keçirəcək, “Qarabağ”ın işlənməsinin yeni kəşf ediləcək yataqların işlənməsi ilə sinerji imkanlarını araşdıracaqlar.

“Qarabağ” yatağı Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən qazma işləri aparılıb. O vaxt burada 3 quyu qazılıb. Lakin xarici tərəfdaşlar yatağın səmərəliliyinə inanmayıb və nəticədə kontrakta xitam verilib. Beləliklə, həmin tərəfdaşlar “Qarabağ”ı tərk ediblər. Azərbaycan mütəxəssisləri isə yatağın böyük potensialı barədə öz fikirlərində israrlı idilər və zaman bunu sübuta yetirdi. Sonralar SOCAR və Norveçin “Equinor” şirkətinin birgə qazma əməliyyatı vasitəsilə “Qarabağ” məhz neft yatağı kimi kəşf edilib.

Prezident İlham Əliyev növbəti illərdə “Qarabağ”ın və digər yataqların uğurla istismar olunacağına, ölkəmizə böyük fayda verəcəyinə əminliyini ifadə edib, layihə üzrə görülmüş işləri yüksək dəyərləndirib: “Nəzərə alsaq ki, “Qarabağ” yatağının yerləşdiyi ərazi Xəzər dənizində çox dərin hissəyə aiddir, əlbəttə ki, belə nəhəng qurğunun tikintisinə böyük tələbat var idi. Onu da bildirməliyəm ki, “Qarabağ” yatağında suyun dərinliyi 180 metrdir və hesab edirəm ki, məhz buna görə sovet vaxtında bu yataqdan neft-qaz çıxarılmamışdır. Çünki sovet dövründə bizim belə texnologiyalarımız olmamışdır, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərin hissəsi də toxunulmaz qalmışdır, müstəqillik dövrü üçün qalmışdır. Əks təqdirdə quru yataqlarda olduğu kimi, dəniz yataqlarımız da tam boşaldılacaqdı və müstəqil Azərbaycanın inkişafı üçün enerji resursları qalmayacaqdı. Ona görə “Qarabağ” yatağının aşkarlanması və sonra yataqda işlərin görülməməsi, əlbəttə ki, müstəqil Azərbaycan üçün böyük hədiyyə olmuşdur. Məhz bu gün aparılan siyasət nəticəsində biz bu işləri görə bilirik”.

“Qarabağ” yatağından 2022-ci ilin sonlarında ilk karbohidrogenlərin hasil ediləcəyi gözlənilir. Bir sıra geoloji amillər deməyə əsas verir ki, burada 60 milyon tondan daha böyük həcmdə təbii ehtiyatlar var. Yataqdan ildə ən azı 1,5 milyon ton neft və 1,5-1,8 milyard kubmetr qaz hasil ediləcəyi nəzərdə tutulur.

Xatırladaq ki, “Equinor” və SOCAR Azərbaycanda “Qarabağ” yatağının işlənməsi və sözügedən üç perspektiv sahədə kəşfiyyat və hasilatın təşkili üzrə əməkdaşlıq edirlər. Norveçli tərəfdaşımız bundan əvvəl də ölkəmizdə həyata keçirilən qlobal layihələrdə sanballı iştirak payı alıb. Belə ki, şirkət “Azəri-Çıraq-Günəşli” yataqlarının tammiqyaslı işlənilməsi layihəsində 7,27 faiz paya malikdir. O, eləcə də 8,71 iştirak payı ilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir.

SOCAR-dakı görüşdə Azərbaycanın “Equinor” üçün mühüm bir ölkə olduğu vurğulanıb. Şirkətin ölkəmizdəki əməliyyatlarını inkişaf etdirmək niyyətində olduğu bildirilib. Həmçinin hazırkı onillikdə neft-qaz qiymətlərinin yüksək olacağını təsbit edən proqnozlar haqqında fikir mübadiləsi aparılıb. Birgə işlənilən yataqlarda hasilatın pik dövrünə məhz bu dövrdə nail olmağın əhəmiyyəti qeyd edilib. Buna görə kəşfiyyat və qazma işlərinin sürətləndirilməsi xüsusi vurğulanıb.

“Equinor”un beynəlxalq kəşfiyyat və istehsalat üzrə icraçı vitse-prezidenti Al Kukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Energetika Nazirliyində də görüş keçirilib. Şirkətin Azərbaycanda iştirak etdiyi layihələr və əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb. Energetika naziri Pərviz Şahbazov “Equinor”un ölkəmizdə uzunmüddətli fəaliyyətindən bəhs edərək, enerji əməkdaşlığına töhfələr verdiyini deyib. Neft-qaz sektoru üzrə əməkdaşlıqla yanaşı, bərpaolunan enerji sahəsinin inkişafına təkan verəcək birgə layihələrin həyata keçirilməsi də müzakirə edilib.

Ölkəmizdə bərpaolunan enerjidən istifadənin genişləndirilməsi, bu istiqamətdə investisiya qoyuluşunun təşviqi ilə bağlı görülən işlər və reallaşan layihələr barədə danışılıb. “Yaşıl enerji” sahəsində beynəlxalq şirkətlərlə əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub. “Equinor”un bərpaolunan enerji mənbələri, xüsusilə günəş və külək enerjisindən istifadə sahəsində həyata keçirdiyi layihələr barədə məlumat verilib. Şirkətin bu sahədə geniş təcrübəyə malik olduğu nəzərə çatdırılıb.

Bütün bunlar o deməkdir ki, “Equinor”un ölkəmizlə əməkdaşlığının və tərəfdaşlığının yeni üfüqləri görünür.

***Flora SADIQLI,***
***“Azərbaycan”***




# Dünya Bankı Azərbaycanda aparılan islahatlara dəstək verir

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı sözügedən qəbulda onu da bildirmişdir ki, işğaldan azad olunmuş ərazilərdə infrastrukturun inkişafına böyük ehtiyac var: “Çünki bütün infrastruktur dağıdılmışdır və insanları qaytarmaq üçün biz, əlbəttə ki, minalardan təmizləmə, sonra isə yenidənqurma işlərini həyata keçirməliyik. İnfrastruktur layihələri olmadan məcburi köçkünləri və qaçqınları qaytarmaq mümkün olmayacaq. Odur ki, biz bu məsələlərdə də Dünya Bankı ilə əməkdaşlığa güvənirik”.

Xəbər verildiyi kimi, Sebastian Molineus Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmovla da görüşüb. E.Rüstəmov ölkəmizin maliyyə sektorunda görülən işlərdən danışarkən bildirib ki, qlobal bazarlarda baş verən mürəkkəb proseslərə, neftin qiymətindəki volatilliyə, pandemiyanın ölkə iqtisadiyyatı üçün yaratdığı çətinliklərə, eyni zamanda Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısının alınması istiqamətində aparılan müharibəyə baxmayaraq, 2020-ci il bizim üçün bütövlükdə uğurlu keçmiş, makroiqtisadi sabitlik qorunmuş və iqtisadi azalma minimal olmuşdur.

S.Molineus Azərbaycanın yeni iqtisadi inkişaf strategiyasının hazırlanmasını olduqca mühüm addım saydığını və islahatların həyata keçirilməsində təmsil etdiyi bankın lazımi dəstəyi verməyə hazır olduğunu bildirmişdir. Görüşdə həmçinin Azərbaycanın Mərkəzi Bankı ilə Dünya Bankı arasında mövcud əməkdaşlıq istiqamətləri, maliyyə sektorunda həyata keçirilən layihələr və əməkdaşlığın inkişaf perspektivləri barədə müzakirələr aparılmışdır.

İqtisadiyyat Nazirliyi də Dünya Bankı ilə əməkdaşlığa böyük önəm verir. Bu iki qurum arasında əlaqələr çoxşaxəlidir. Dünya Bankı ilə özəl sektorun diaqnostikası, innovasiyalar, rəqəmsal inkişaf, idarəetmə texnologiyalarının inkişafı və digər sahələrdə əməkdaşlıq Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi, müasir texnologiya və yeniliklərin ölkəmizə gətirilməsi baxımından xüsusi önəm kəsb edir.

Təsadüfi deyil ki, S.Molineus Azərbaycanda aparılan iqtisadi islahatların Dünya Bankı tərəfindən dəstəkləndiyini, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirdiyini qeyd edib.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni nəsil islahatlara start verilmiş, növbəti 10 il üçün milli prioritetlər müəyyən edilmişdir. İslahatların geniş spektri məqsədyönlü və konkret strateji hədəflərin reallaşmasına, ölkədə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasına, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılmasına, Azərbaycanın təmiz ətraf mühit və “yaşıl artım” ölkəsinə çevrilməsinə yönəlmişdir. Dövlətin belə dəqiq perspektivlərə hədəflənməsi beynəlxalq təşkilatlarla, xüsusilə Dünya Bankı ilə əməkdaşlığın məzmununu dərinləşdirir. Bu qurum strateji tərəfdaş kimi sözügedən islahatlarda da Azərbaycana dəstək vermək niyyətindədir.

Ekspertlər iqtisadiyyat naziri Mikayıl Cabbarovun Sebastian Molineusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirdiyi görüşü də iki qurumun qarşılıqlı əməkdaşlığının dərinləşməsinə xidmət edən amil kimi dəyərləndirirlər. Belə ki, İqtisadiyyat Nazirliyi Dünya Bankının ölkəmizə göstərdiyi texniki yardım və maliyyə dəstəyini yüksək qiymətləndirir. Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər Dünya Bankı tərəfindən bəyənilir, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlər yüksək qiymətləndirilir.

Sonda onu da qeyd edək ki, Dünya Bankı ayrı-ayrı ölkələrdə sabit və davamlı inkişafa nail olmaq üçün öz maliyyə resurslarından, yüksəkixtisaslı kadrlarından və biliklər bazasından istifadə edir. Bu qurum digər banklardan fərqli olaraq dünya iqtisadiyyatının və bir çox digər sosial-mədəni sahələrin inkişafında əvəzsiz rola malikdir. Qurumun fəaliyyətinin əsas istiqaməti iqtisadi keçid dövründə olan və inkişaf edən, eləcə də yoxsul ölkələrə kreditlər vasitəsilə yardım göstərmək, yoxsulluğun səviyyəsini azaltmaq, həmçinin üzv dövlətlərin inkişafını təmin etməkdir. Bankın fəaliyyəti insani inkişaf (təhsil, sağlamlıq və s.), kənd təsərrüfatı və kəndlərin inkişafı, ətraf mühitin qorunması, infrastruktur, idarəetmə və s. sahələri əhatə edir. Bu baxımdan da Dünya Bankı ilə Azərbaycanın əməkdaşlığı çoxşaxəli xarakter daşıyır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## 7 Aprel Ümumdünya Sağlamlıq Günüdür

# Ağ xalatlı qəhrəmanlar

## Həyat da, böyük məqsədlər də sağlamlıqdan başlayır

**Həyatın hər anı özünəməxsus cəhətləri ilə xarakterikdir. Bu cəhətlər dövrün ab-havasına, zamanın çağırışlarına, zərurət və gerçəkliklərinə uyğun olaraq müəyyənləşir. Əslində tarixin öz ahəngi ilə davam edən dövrü heç zaman olmayıb. Əgər hansısa mərhələ belə görünürsə, bu rəvanlığı, ahəngi davam etdirən yenə də insanın gərgin əməyi, zəhmətidir.**



2020-ci il tariximizin xüsusilə çətin, mürəkkəb və məsuliyyətli bir dövrünə təsadüf etdi. Azərbaycan eyni vaxtda iki düşmənə qarşı savaşdı. Bu savaşda əsgər və zabitlərimiz kimi həkimlərimiz, ümumən tibb işçilərimiz də tarix yazdılar. Yaralılarımızın həyatda qalması üçün ən ağır şəraitdə, güllə, mərmi yağışı altında peşə borclarını yerinə yetirdilər, xəstəxanalarda gecə-gündüz bilmədən çalışan bu insanların fədakarlığı 44 günlük Vətən müharibəsinin şanlı səhifələrinə çevrildi. Bu qəhrəmanlıq nümunəsi ilə hər zaman qürur duyacağıq!

Sevgi dolu cəsur ürəkli belə qəhrəmanlarımızın sayı minlərlədir. Səhiyyə sahəsində çalışanların başqa bir qismi isə bu gün dünyanı çənginə almış koronavirus pandemiyasından insanlarımızı qorumaq üçün fədakarlıqlar göstərirlər və həkimlərimiz öz missiyalarını yenə də davam etdirməkdədirlər. Zaman keçdikcə, pandemiya kabusu geridə qaldıqca və normal həyatımıza döndükcə onların çoxunu daha yaxından tanımağa başlayacağıq.



### Cəsur ürək sahibləri

Deyirlər ki, həkim nikbin olmalı, kömək etməyə tələsməli, xoş əməllərlə və səmimi duyğularla yaşamalıdır ki, yaşada bilsin. Dara düşənə yardım etməyi bacarmaq, mənəvi dəstək vermək, davranışı, mədəniyyəti, diqqəti, qayğı və məhəbbəti ilə bütün xəstələrinin və onu tanıyanların sevimlisinə çevrilmək, bitib-tükənməyən təşəkkürlər eşitmək həyatda qazanılan daha böyük uğurdur. Həkimlik fəaliyyəti, alimliyi, peşəkarlığı ilə qısa bir zamanda tanınan Azərbaycan Tibb Universitetinin Ağciyər xəstəlikləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Rafiq Bayramov məhz belə həkimlərdən biridir. Bu sınaq dolu günlərdə pandemiya dalğasında ölümün cəngindən qurtulmuş yüzlərlə insan hazırda həyatda olduqları üçün bəlkə də bu həkimə borcludurlar. "Əlbəttə, pandemiya dövründə tibb işçilərinin fəaliyyəti təsəvvür edildiyindən də çətin və gərgindir" deyir Rafiq Bayramov: "Xəstəliyi törədən virusdan mümkün qədər uzaq qalmaqdan ötrü son dərəcə tədbirli davranmaq lazım gəlir. Amansız bir bəlanın əhatəsindəyik. Virus adi bir əşyaya toxunmaqla da adamı haqlaya bilər. İnsanların bacardıqca uzaq qaçmağa çalışdıqları yoluxma mənbələri bizim bircə addımlığımızdadır, çalışdığımız gündəlik mühitdədir. Amma çətinliklər bizi qorxutmamalıdır. Buna haqqımız yoxdur. İnsanların bizə ehtiyacı var. Onların həyatının xilası bizim missiyamızdır".

İstənilən xəstəliyə yoluxanlar bilirlər ki, mərəzə qalib gəlməyin ən mühüm şərti insanın öz ruhi müvazinətini saxlaya bilməsidir. Daxili sakitliyini qorumağı bacarmasıdır. Koronavirusa yoluxmuş xəstələr üçün bu, xüsusilə həyati əhəmiyyət daşıyır. Dünyada milyonlarla insanın yaşamasına son qoymuş bu xəstəlik təhlükəli virusu, fəsadları kimi yaratdığı fobiya, insan psixikasına ağır təsirləri ilə də dəhşətlidir. Belə ruh halı yaşayan insanlar üçün Rafiq Bayramov kimi həkimlərimiz mənəvi güc mənbəyidirlər. O, öz peşəkarlığına güvənərək, heç bir təşviş, təlaş hissi keçirmədən xəstələrinə ümid verir. Hər an onların yanında olur. Rafiq Bayramovun təyin etdiyi həm müalicə üsulları, həm də xoş xasiyyəti, insanpərvərliyi, yüksək mədəniyyəti də xəstələrinə bir məlhəmdir, şəfa qaynağıdır. Hər dəfə belə həkimləri yanında görəndə xəstəlikdən daha güclü bir qəhrəmanını təsəvvür edirsən. Əmin olursan ki, bu qəhrəmanlar tutulduğun bəlanın səni üstələməsinə imkan verməyəcəklər. Onu şər qüvvə kimi orqanizmindən qovub çıxaracaqlar. Rafiq müəllim və həmkarları insanların həyat eşqini bir an da olsun sönməyə qoymurlar. Sağalmağa olan ümidlərini artırırlar. Tibbi və mənəvi dəstəkləri ilə onların həyata bağlanması üçün əllərindən gələni edirlər. Fədakarlıqları ilə müqəddəs borclarını yerinə yetirirlər.

Əslində, bir insan üçün bundan böyük xoşbəxtlik yoxdur. Ölümün bir addımlığından həyata qayıtmış minlərlə insanın ömür kitabında bu fədakar insanların adları var. Xüsusi geyimlərin, eynək və maskaların sifətlərində, alınlarında açdığı şırımlar onların şücaətinin nişanəsidir. Bax, əsl həkimliyin qayəsi də budur. Azərbaycan həkiminin qəhrəman obrazı tarixə həm də belə düşüb. Zamanın silinməz yaddaşında belə bir şəkildə əbədiləşib.

### Minlərdən biri

Doktor Rafiq Bayramov Azərbaycanın müstəqilliyi illərində yetişmiş peşəkar tibb mütəxəssislərimizdəndir. 1976-cı ildə indiki Ermənistan ərazisindəki tarixi torpaqlarımızdan olan Basarkeçər rayonunun Daşkənd kəndində dünyaya gəlib. Azğın qonşularımızın etnik təmizləmə siyasəti nəticəsində uşaqlığı əlindən alınan soydaşlarımızdandır. Orta təhsilinə doğulduğu kənddə başlayıb. 1988-ci ildə azərbaycanlıların Ermənistandan didərgin salınması nəticəsində ailəsi ilə birgə Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşmaq məcburiyyətində qalıb. Erkən yaşlarından üzləşdiyi sınaqlar, çətinliklər nə qədər ağır və keşməkeşli olsa da, onu təhsilindən, gələcək arzularından uzaq sala bilməyib. Yaşının erkən çağlarından belə bir həqiqəti dərk etməyə başlayıb ki, böyük arzu və amallara yol elmdən, biliklərdən, onları qazanmaq üçün çəkilən böyük əziyyətlərdən keçir. Təhsilini Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində davam etdirib. 1993-cü ildə isə Bakı şəhəri 12 saylı tam orta məktəbi bitirib. Beləliklə, uşaqlıqdan qəlbində gəzdirdiyi ən böyük arzusuna qovuşub. Azərbaycan Tibb Universitetinə qəbul edilib.

1993-1999-cu illərdə ATU-nun Pediatriya fakültəsində təhsil alıb. Qarşıda isə daha böyük bir arzusu vardı. Elmlə məşğul olmaq, dünyanın, o cümlədən Azərbaycanın məşhur tibb alimlərinin yaratdıqları zəngin ənənələrin davamçısına çevrilmək, elmi tədqiqatlarla bu ənənələrə töhfə vermək, təkcə fərd olaraq ayrı-ayrı insanların deyil, həm də insanlığın xilasına çalışmaq. Elə bu amalla da tibb təhsilini başa vurduqdan dərhal sonra elmi fəaliyyətə yönəlib. 2000-2002-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fiziologiya İnstitutunun aspiranturasında oxuyub. Eyni vaxtda bu elm ocağında kiçik elmi işçi kimi çalışıb. 2003-cü ildə Azərbaycan Tibb Universitetinin Ağ ciyər xəstəlikləri kafedrasının baş laborantı, 2004-cü ildə assistenti, 2013-cü ildə dosenti olub.

2011-ci ildə ATU-nun I Müalicə profilaktika fakültəsinin dekan müavini olan Rafiq Bayramov 2013-2015-ci illərdə fəaliyyətini universitetin rektor köməkçisi kimi davam etdirib. 2015-ci ildə isə ATU-nun Ağ ciyər xəstəlikləri kafedrasının müdiri vəzifəsinə seçilib. 2011-ci ildə o, professor N.Ə.Abbasovun elmi rəhbərliyi ilə "Xroniki destruktiv ağ ciyər vərəmi zamanı ürəyin funksional vəziyyəti" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alıb. R.Bayramov 50-dən çox elmi məqalənin müəllifidir. Xroniki destruktiv ağ ciyər vəreminin öyrənilməsi, bu xəstəliyin yeni müalicə üsulları və tibbi müdaxilə zamanı ürəkdə baş verən dəyişikliklər alimin əsas tədqiqat istiqamətlərini təşkil edir.

### Şücaətin nişanəsi

Koronavirus pandemiyasına qarşı gərgin mübarizə Rafiq Bayramovun elmi və təcrübi həkimlik fəaliyyətinin böyük bir səhifəsidir. O, minlərlə həmkarı ilə birgə aylardır ki, bu xəstəliyə qarşı döyüşür, hünər göstərir. Peşəkarlığına güvənərək təyin etdiyi müalicə üsulları neçə-neçə insanın məlhəminə çevrilir.

Rafiq Bayramovun təhlükəli xəstəliyin çəngindən alıb həyata qaytardığı yüzlərdən biriləri də mənim döğmalarım idi. Pandemiya dalğasının başladığı ilk günlərdən çoxları kimi bu virusdan maksimum qorunmağa çalışırdılar. Amma xəstəliyin daha güclü dalğasında görünür COVID-19-un hücumları özünümüdafiə tədbirlərindən güclü çıxdı. Bir də onda hiss etməyə başladıq ki, hərarət, halsızlıq və başqa belə əlamətlərlə təhlükə getdikcə güclənir. Götürülən testlərin nəticəsi də narahatlığın ciddiliyindən xəbər verirdi. Belə bir məqamda doğmalarımın taleyinin tibb üzrə fəlsəfə doktoru Rafiq Bayramova əmanət edilməsi həyatlarının xilası oldu.

Jurnalistika sənətinin bir maraqlı xüsusiyyəti də budur ki, həyatının ən ağır anlarında da sənət maraqları adamı tərk etmir. Başına gələnlərə həm də öyrənmək, qələmə almaq, oxucularınla bölüşmək üçün yeni bir təcrübə, yeni bir mövzu kimi baxırsan. Sual vermək istəyi adamı tərk etmir. Söhbətlər zamanı Rafiq həkim tez-tez müxtəlif suallarıma cavab verməli olurdu. Bunlardan bir qismi pasiyentin öz səhhəti ilə bağlı təbii nigaranlığından irəli gələrək doğma həkiminə ünvanladığı suallar idi. Amma sualların çoxu jurnalist marağı ilə bu xəstəlik barədə verilirdi. Rafiq Bayramov da hər dəfə səbrlə, təmkinlə suallarımı dinləyir, yaddaşımızda taclı bəla kimi qalacaq xəstəliyin özəllikləri barədə maraqlı izahlar verirdi.

İlk dəfə ondan öyrəndim ki, Çexovun məşhur "Qılaflı adam" hekayəsinin qəhrəmanı kimi bu təhlükəli virus da orqanizmə daxil olandan sonra özünə xüsusi qılaf düzəldir. Qılafını möhkəmləndirib tədricən tənəffüs yollarına doğru irəliləməyə başlayır. Bu prosesdə önləyici tədbirlər görülməzsə, əsas hədəfinə çatıb adamı xəstələndirir. Sonra isə əlavə fəsadlar verməyə başlayır.

Əfsuslar olsun ki, son aylara qədər tədricən azalan yoluxma sayı yenidən yüksəlir. Xəstəliyə tutulanlar sağalanların sayını üstələyir. Hər gün xeyli insanın bu xəstəlikdən dünyasını dəyişdiyini eşidirik. "Bu tendensiya, təbii ki, həkimlər üçün də böyük yükdür" deyir Rafiq Bayramov. Xəstəliyə yoluxan hər yeni xəstə tibb işçilərimizin onsuz da kifayət qədər olan iş həcmini daha da artırır. Söhbət insan həyatından gedir. Hər kəsə xüsusi diqqət lazımdır. Bir xəstənin müalicəsinə isə bəzən onlarca tibb işçisi cəlb olunur. Yoluxmuş insanların sağalaraq həyata qayıtmasından ötrü bütün imkanlardan istifadə edilir.

Artıq ölkəmizdə müvafiq yaş qrupları üzrə peyvəndlənmə prosesi gedir. Azərbaycan bütün çətinliklərə baxmayaraq bu prosesi uğurla aparan öncül ölkələrdəndir. Vətəndaşlarımız ilk növbədə aidiyyəti tibb müəssisələrinə gedib peyvənd olunmalıdırlar. Kimlərinsə peyvəndlər əleyhinə yanlış rəy yaratmasına imkan verməməliyik. İnsan sağlamlığı üçün təbabət elminin alternativi yoxdur. Min illərin nəzəri-praktik ənənələrinə əsaslanan elm isə vəziyyətdən ən düzgün çıxış yolu kimi kütləvi peyvəndlənmə prosesini təqdim edir.

### Koronavirus pandemiyası bəşəriyyətin üzləşdiyi yeni bir sınaqdır

Bu sınağın nə zaman bitəcəyi hələ tam məlum deyil. Amma bəlli olan budur ki, insan övladı bu sınaqdan da güclənərək çıxacaq. Sağlamlıq mövzusunun aktuallaşması insan həyatının dəyərini daha da artıracaq. Səhiyyə mədəniyyəti yüksələcək. Ümumilikdə təbabət elminə maraq artacaq. Bu elm özünün yeni bir inkişaf mərhələsinə qədəm qoyacaq. Ən mühümü, fərd olaraq hər birimiz pandemiya dövründə formalaşan ənənələrin böyük bir qismini həyat normala dönəndən sonra da qoruyacağıq. Bu isə ictimai həyatımızda faydalı inkişaf meyillərini gücləndirəcək. Getdikcə daha çox insan sağlam həyat tərzinə meyillənəcək. Ziyanlı vərdişlərə maraq azalacaq.

Doktor Rafiq Bayramov bu xəstəliyə təslim olmamaq üçün orqanizmin immun qabiliyyətinin artırılmasını çox vacib sayır. Çünki nə qədər tədbir görsək də, tənəffüs infeksiyalarına yoluxmaqdan qorunmaq yenə də asan deyil. Udduğumuz hava, içdiyimiz su, qəbul etdiyimiz qidalarla birgə hər dəqiqə saysız-hesabsız infeksiya qəbul edirik. Onların çox az bir qismi bizi xəstələndirə bilir. Orqanizmin müqavimət hissi buna imkan vermir. Amma insanın immun sistemi zəif olanda, üstəlik bu sistemi zəiflədən başqa xəstəliklərdən də əziyyət çəkəndə koronavirus daha ağır keçir. Təəssüf ki, bəzən xəstənin həyatına son qoyur. Ona görə də orqanizmin immun sisteminin gücü burada həlledici əhəmiyyət daşıyır.

İmmun sistemini gücləndirməyin əsas yollarını isə Rafiq həkim belə göstərir: balanslaşdırılmış qidalanma, xüsusilə C vitamini ilə zəngin təbii ərzaqların qəbulu, normal yuxu rejimi, idman, mümkün qədər açıq hava, soyuqdan qorunmaq, stress və təşvişdən uzaq olmaq.

Pandemiya sınağının anlatdığı bir həqiqət var ki, dünyada heç nə özümüzün, doğmalarımızın həyat və sağlamlığından dəyərli deyil. Bu dəyəri hər zaman qorumağa çalışaq. Sağlam olaq, başqalarının da sağlamlığı qeydinə qalaq.

Ümid edirik ki, dünyamız bu bəladan tezliklə qurtulacaq. Rafiq Bayramov kimi tibb işçilərimizin fədakarlığı isə yaddaşlarda daim qalacaq. Onların dəyərli məsləhətləri həyatımız tam normala dönəndən sonra da bizim üçün son dərəcə faydalı olacaq.

Bu yazı da günümüzün ağ geyimli qəhrəmanlarına, tibb işçilərinə bir minnətdarlığımızdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

---

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Bölük komandirinin şücaəti

İkinci Qarabağ müharibəsinin iştirakçısı Şükür Allahverdi oğlu Səfərli Bakıda anadan olub, Nəsimi rayonundakı 1 saylı orta məktəbi, 2018-ci ildə isə Qərb Universitetinin Kompüter mühəndisliyi fakültəsini bitirib. 2018-2019-cu illərdə Milli Orduda həqiqi hərbi xidmətdə olub, kiçik çavuş kimi ehtiyata buraxılıb.



Ermənistanın silahlı birləşmələri ötən ilin iyun ayında Tovuz rayonu istiqamətində dövlət sərhədini pozub torpaqlarımızı işğal etmək istəyəndə Şükür Səfərli düşmənə qarşı vuruşmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinə müraciət edərək könüllü kimi qeydə alınmışdı. Onun bu istəyi üç aydan sonra - sentyabrın 27-də Vətən müharibəsi başlayanda tam reallaşdı. Müharibəyə gedəndə iki dəfə ağır cərrahi əməliyyat keçirən anası ağır yataq xəstəsi olduğundan narahatlıq yaranmasın deyə onunla görüşüb-sağollaşanda şəhər yaxınlığındakı təlim-tədris mərkəzinə bir neçə günlüyə təlimə çağrıldığını deyir. Bu barədə ailə üzvlərindən yalnız atası Allahverdi Səfərov məlumatlı olur və müharibənin ilk günü oğluna xeyir-dua verərək cəbhəyə yola salır.

Ş.Səfərlinin görmə qabiliyyətinin bir az zəif olmasına, eynəkdən istifadə etməsinə baxmayaraq, heç bir çətinlikdən qorxmamış, bölük komandiri kimi komandanlıq tərəfindən verilən döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirmişdir.

Vətən müharibəsinin könüllü iştirakçısı Şükür Səfərli ölkəmizin ərazilərinə doğru irəliləməyə can atan Ermənistan silahlı terrorçu quruplaşmalarına qarşı döyüşlərdə özündən çox döyüşçü yoldaşlarının fədakarlığından, qorxmazlığından, böyük ruh yüksəkliyi ilə vuruşduqlarından ürək dolusu söhbət açdı. Onu da xüsusi vurğuladı ki, Vətən müharibəsinin qızğın döyüşlərində əmisi oğlu Vüsal və Əkbər Zəngilan-Qubadlı istiqamətində, bibisi nəvəsi Rəşad Babazadə və Ələkbər Kişiyev Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd rayonu istiqamətində cəbhənin müxtəlif yerlərində erməni terrorçuları ilə ölüm-dirim savaşında igidliklə döyüşüblər.

Özü haqqında danışmasını xahiş edəndə o, böyük vətənpərvərlik hissi ilə bildirdi ki, Vətəni müdafiə etmək hər birimizin borcudur. Doğma yurdun ağır günündə onun çağırışına hay verməsək, onda nə olar? Vətənin müdafiəsi hamımızın, əsasən də biz gənclərin borcudur. Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşən xalqımızı təmsil edən ordumuz bütün dünyaya öz cəsarətini göstərdi. Dövlətimiz müharibədən qalib kimi çıxdı. Çox məmnunam ki, bu müharibənin iştirakçısı oldum.

Cəbhə bölgəsindən arabir telefon əlaqəsi yaradan Şükür anasının sağlamlıq durumu haqqında xəbər biləndə təkidlə "sənin üçün yaman darıxmışam" deyən anasını təlimlərin yaxın vaxtlarda başa çatacağına və tezliklə evə qayıdacağına inandırmağa çalışırdı. Təranə xanım oğlunun müharibədə olduğunu Şükür cəbhə bölgəsindən tərxis ediləndən bir gün əvvəl bilib. Qəfil xəbərdən əvvəl bir balaca həyəcanlansa da, sonradan oğlunun vətənpərvərliyinə sevinmiş və onun bu hərəkətindən qürur duyduğunu bildirmişdir.

Deyirlər, dənizçinin cəsarəti fırtınada, əsgərin cəsarəti müharibədə, xalqın cəsarəti ağır sınaq günlərində bəlli olur. Qarabağsız yaşadığımız 30 ilə son qoymuş, dünya hərb tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş bölük komandiri Şükür Səfərli ilə indi nəinki ailə üzvləri, onu yaxından tanıyanlar da böyük qürur hissi keçirirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

---

# İgid ölər, adı qalar

Bir gün gələn bir gün getməlidir. Necə deyərlər, "Ölüm haqdır, çıxmaq olmaz əmrdən". Bir az gecitezi olur onun. Başlıca şərt isə ulu Tanrının verdiyi ömür payını necə yaşamaqdır. Bu baxımdan şəhidlər ən uca məqamda qərar tuturlar. Çünki şəhidlik şüurlu ölümdür. Unudulmaz şairimiz Şəhriyarın sözləri ilə desək:

Şəhidlik bir səadət ki, hər kəs ona çata bilməz,
Allah ilə alım-satım, hər kəs alıb-sata bilməz.
İnsan gərək özün atsın, hər kəs özün ata bilməz.
Şəhidlərdir bunca çatan böylə böyük səadətə,
İgid bala, ayrılırıq, görüş qalsın qiyamətə.

Keçən il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı yüzlərlə salyanlı gənc də Vətənin müdafiəsinə qalxdı. Onların arasında nisbətən təcrübəlisi də, bığ yeri təzəcə tərləyəni də vardı. Bütün Azərbaycan oğulları kimi onları da bir amal, bir istək birləşdirirdi - nəyin bahasına olursa-olsun 30 ilə yaxın düşmən tapdağı altında qalan Qarabağı işğaldan azad etmək!

Bəli, biz heç vaxt xalqımızda belə birlik, döyüşkən ruh görməmişdik. Yaxşı deyiblər: "El bir olsa, dağ oynadar yerindən, güc bir olsa, zərbi kərən sındırar".

Müdrik xalqımız bu dəfə də ən çətin vaxtda nəyə qadir olduğunu göstərdi, Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşdi. Birlik isə dirilikdir. Bu birlik dəmir yumruğa dönüb düşmənin başını əzdi.

44 günlük müharibədə düşmən və onun havadarları ən çirkin niyyətlərə əl atdılar. Amma sonda Ermənistanın baş naziri N.Paşinyan kapitulyasiya aktını imzalamaq məcburiyyəti qarşısında qaldı. Qarabağ, mədəniyyət beşiyimiz Şuşa işğaldan azad oldu.

Bu qələbənin qazanılmasında istər ön, istərsə də arxa cəbhədə olsun, salyanlıların da payı vardır. Vətən uğrunda gedən döyüşlərdə 58 salyanlı gənc qəhrəmancasına həlak oldu. Onlar böyük izdihamla, dərin ehtiramla doğulduqları qəsəbə və kəndlərdə torpağa tapşırıldı. Şəhidlərimiz dövlət tərəfindən medal və ordenlərlə təltif edildilər.

Dövlətimiz şəhid ailələrinin bütün ehyiyaclarını qarşılayır, onlara böyük ehtiram göstərilir. Salyan şəhərində, rayonun ayrı-ayrı yaşayış məntəqələrində şəhidlərin böyüdülmüş şəkilləri ən görkəmli yerlərdə asılıb. Salyan şəhərindəki lövhədə isə 58 şəhid bir yerə toplaşıb. Lövhə gecələr xüsusi lampalarla işıqlandırılır. Buradan sakit keçib getmək mümkün deyil. Hər kəs bu lövhənin önündə dayanıb şəkillərdən boylanan qəhrəmanlara baxır, lövhənin önünə gül-çiçək qoyur, şəhidlərin ruhuna dualar oxuyur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

---

# Tarix Muzeyinə şəhid Azad Hümbətova məxsus əşyalar təhvil verilib



Milli Azərbaycan Tarixi Muzeyinə II Qarabağ müharibəsinin şəhidi, baş leytenant Azad Hümbətova məxsus əşyalar təhvil verilib.

Bu barədə AZƏRTAC-a muzeydən məlumat verilib. Bildirilib ki, şəhid A.Hümbətovun hərbi geyimi, fotoşəkli, qol saatı muzeyin elmi işçisi Sahibə Ələkbərova tərəfindən muzeyə təqdim edilib.

Azad Hümbətov 1996-cı ildə Bakı şəhərində anadan olub. Vətən müharibəsi başlayan gündən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonları istiqamətlərində gedən döyüşlərdə iştirak edərək düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirib. Tank taqımı komandiri olan Azad Hümbətov dəfələrlə döyüş yoldaşlarını düşmən mühasirəsindən yaralı halda çıxarıb. Laçın istiqamətində gedən döyüşlərdə komandirlik etdiyi tankı ilə minaya düşərək yaralanıb. A.Hümbətov ayağından aldığı qəlpə yarasına görə Beyləqan hospitalına göndərilib. Lakin iki gündən sonra müalicəsini yarımçıq qoyaraq döyüş meydanına qayıdıb. Ailəsi isə onun yaralı vəziyyətdə olmasından, müalicəsini yarımçıq qoyaraq döyüş meydanına qayıtmasından yalnız şəhid olandan sonra xəbər tutur. Döyüşlər zamanı rəhbəri olduğu tank bölüyündən ona ehtiyac olan piyada döyüş bölüyünə rəhbər təyin edilib. Oktyabrın 27-də Laçın uğrunda döyüşlərdə öz bölüyü ilə geri dönən zaman düşmən tərəfindən artilleriya atəşinə məruz qalıb və ağır yaralanıb. Xəstəxanaya çatana qədər gözlərini əbədi yumub. A.Hümbətov II Fəxri xiyabanda dəfn olunub.

İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətə görə şəhid Azad Hümbətova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda", "Füzulinin azad edilməsinə görə" və "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilib.

---

# Lənkəranlı gənclər Aprel döyüşlərində şəhid olmuş Əlizamin İslamovun məzarını ziyarət ediblər

Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin əməkdaşları Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış rayonun Cil kənd sakini İslamov Əlizamin Fərrux oğlunun məzarını ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, lənkəranlı gənclər şəhid Əlizamin İslamovun məzarı önünə əklillər və gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, ruhuna dualar oxuyublar.



Anım mərasimində Aprel döyüşlərində Azərbaycan Ordusunun əsgər və zabitlərinin, o cümlədən sıravi əsgər Ə.İslamovun döyüşdə göstərdiyi qəhrəmanlıqdan danışıblar.

Qeyd edək ki, Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış Lənkəran rayonunun Cil kənd sakini, 12 iyul 1997-ci il təvəllüdlü sıravi əsgər Əlizamin İslamov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medal ilə təltif olunub.

# 7 Aprel Ümumdünya Sağlamlıq Günüdür

# Xilaskarlar

## Vətən müharibəsində də, koronavirusla savaşda da həkimlər daim ön cəbhədə oldular

Əvvəli 1-ci səh.

Azərbaycanı həkimi, xəstəsi, müəllimi, şagirdi, döyüşçüsü, şəhidi, minaxtaranı ilə bütöv bir ailə kimi qəbul etsək, o ailədə bir-birimizə sayğı və diqqətlə, anlayışla yanaşsaq, hər bir üzvü öz sahəsində yalnız uğur qazanar...

### Vətən müharibəsində həkimlər

Həkimlər də qələbə sevəndir, hamımız kimi. Onu kim sevməz ki...

Döyüşlər başlanan ilk gündən Azərbaycan həkimləri orduya könüllü yazıldılar. Ön cəbhədə döyüşən, yaralanan əsgər və zabitlərimizin ən yaxın arxa-dayağı həkimlər idi. Döyüşlərin əvvəlindən döyüşçülərlə bərabər həkimlər də yaralanır, hətta şəhid olurdular.

Yaralı əsgərin həyatını xilas etmək üçün öz həyatını riskə atan gənc həkim Turqut Xəlilbəylinin şəhid olması çox ağır, bununla belə qürurverici idi...

Həkimlər qəhrəmandılar... Həm də yalnız müharibə şəraitində deyil...

Qarabağ müharibəsində 159 hərbi tibb işçisi yaralanıb. Onlardan 42 həkim, 37 feldşer və 26 sanitar şəhidlik zirvəsinə ucalıb.















### COVID-19-la döyüşənlər

Zamanımızda daha bir düşmənlə mübarizədə həkimlərimiz birbaşa ön cəbhədədir...

Bir ildən artıqdır ki, bütün dünya COVID-19 deyilən virusla döyüşür və hələ də qələbə insanlığın tərəfində deyil. Dünyada koronavirusa yoluxanların sayı 130 milyonu ötüb. Təkcə ötən həftə dünyada koronavirusa 4 milyona yaxın yoluxma qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarında göstərilir ki, qlobal miqyasda altıncı həftədir ki, COVID-19 infeksiyasına yoluxma halları artmaqda davam edir. Ötən həftənin yayılma göstəriciləri əvvəlki ilə müqayisədə 14 faiz çoxdur.

Azərbaycanda da vəziyyət bu baxımdan fərqli deyil. Azərbaycan da dünyanın bir hissəsidir. Dünyada artan virus burada da yüksələn tempdədir. Bir ildən artıqdır ki, ölkəmizdə həkimlər sahəsindən asılı olmayaraq bu amansız virusla mübarizəyə qalxıb.

Aylarla ailəsinin üzünü görmədən "döyüşən" həkimlər var...

Ötən il martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Yeni klinika" tibb müəssisəsinin açılışında iştirak ediblər. Tibb ocağı 575 çarpayılıqdır. Burada cərrahiyyə, terapiya, təcili tibbi yardım, poliklinika, ürək və damar cərrahiyyəsi, neyrocərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərir. Xəstəxanada 1500-dən artıq həkim və tibbi heyət çalışır.

### COVID-19-la mübarizədə dövlət də həkimlərimizin yanındadır

"Yeni klinika"nın açılışında Prezident İlham Əliyev xatırlatmışdı ki, "2004-cü ildən bu günə qədər 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Onların bir çoxunun açılışında mən şəxsən iştirak etmişəm. Bu gün Azərbaycanda elə şəhər yoxdur ki, orada müasir tibb mərkəzi, xəstəxana olmasın. Üç-dörd şəhərdə mərkəzi rayon xəstəxanasının tikintisi davam edir və yaxın vaxtlarda orada açılışlar gözlənilir. Təkcə bu il Qazax, Goranboy və Şəmkir şəhərlərində mənim iştirakımla mərkəzi rayon xəstəxanalarının açılışı olmuşdur".

Yenə ötən il iyunun 9-da Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan üç modul tipli xəstəxananın açılışı olub.

Həmin tədbirdə Prezident belə qeyd edib: "Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır".

### COVID-in udduğu həkimlər

Bununla belə, hələ də Qarabağ cəbhəsində düşmən üzərində qazanılan qələbəni virus üzərində əldə edə bilməmişik. Hərçənd bu mübarizədə hamı birlikdə savaşır. Koronavirusla mübarizə cəbhəsində itirdiyimiz ilk tibb işçisi Bakıda təcili yardım stansiyasının həkimi Zakir Xəlilov oldu.

Daha sonra COVID-19-a yoluxmuş tibb işçisi Cəmşid Abbasovun da həyatını xilas etmək mümkün olmayıb. Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasının cərrahı Sürət Abbasov da virusla mübarizədə həyatdan köçüb.

Gəncədə travmatoloq, 1970-ci il təvəllüdlü Mehman Hüseynov Bakıda müalicə aldığı xüsusi xəstəxanada dünyasını dəyişdi. Onkoloq Fikrət Namazov, Türkiyədə özəl xəstəxanada çalışan həmyerlimiz, həkim Tahir Bababəyli, Sumqayıt Ruhi-Əsəb Xəstəlikləri Dispanserinin həkimi Əhməd Şirinzadə, Gəncədən uşaq nevroloqu Kəmalə Dəhqani, ortoped-travmatoloq Mehman Hüseynov, Astara MRX-nin cərrahı Kamil Əliyev, Bakıdan anestezioloq-reanimatoloq Ceyhun Hacıyev, Respublika Angioloji Mərkəzin baş mütəxəssisi, damar cərrahı Faiq Yusifov, Sumqayıt Şəhər Xəstəxanasının həkimi Fərman Süleymanov, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun əməkdaşı Faiq Ağayev, ATU-nun Onkologiya kafedrasının onkoloqu Fikrət Namazov, Mingəçevir Şəhər Xəstəxanasının Reanimasiya şöbəsinin həkimi Rəna Məmişova... Ümumilikdə 25 həkimin adı açıqlanıb və təəssüf ki, bu siyahı artmaqda davam edir, çünki virus hələ yaşayır.

Prezident İlham Əliyev yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam da imzalayıb. Yeni növ koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilib.

### Həkim, tap dərmanı, tap, sənə qurban...

Döyüşlərdə, ön cəbhədə düşmənə qalib gəldik. Koronavirusla mübarizə hələ də davam edir. Ön cəbhədə isə həkimlərdir, tibb işçiləridir. Onların fədakarlığı sayəsində hər gün yüzlərlə insan virusla mübarizədə qalib gəlib evinə, ailəsinə sağ-salamat qayıdır...

Necə ki, onlar müharibədə yaralanan əsgər və zabitləri sağaldıb öz ailələrinə sağ-salamat yola saldılar, indi də bu cəbhədə həmin missiyanı davam etdirirlər...

Bütün peşə adamları gün ərzində işləyib axşam ailələri ilə birlikdə ev şəraitində dincəlirlər. Bu gün həkimlərimiz bundan imtina ediblər...

İmtina ediblər ki, heç bir ailə xoşbəxtliyi yarımçıq qalmasın...

Kimsə virus səbəbindən əzizini vaxtsız itirməsin...

Görünür, bu, insanlıq üçün bir sınaqdır. Bir daha heç kim heç kimin əməyini kölgə altına salmasın. Erməni adlı düşmənlə mübarizədə olduğu kimi, COVID-lə mübarizədə də birlikdə olsaq, qələbə bizimlə olar. Bu mübarizədə daha çox dəstək verməli olduqlarımız isə məhz həkimlərimizdir.

*Həkim, tap dərmanı,*
*tap, sənə qurban,*
*İndi başqa dövr,*
*başqa zamandır.*
*Ellər loğman deyir*
*sizə əzəldən,*
*Bilək ki, düz deyir,*
*yoxsa yalandır...*

COVID-19-la mübarizədə ağ xalatlı xilaskarların mübarizəsi uğurlu olsun...

***Ramilə QURBANLI, "Azərbaycan"***







◆ Vaksinasiya prosesindən reportaj

# "Peyvənddən sonra ürəyim rahatlandı, sanki mənə güc gəldi..."

## Əhali vaksinasiyada artıq fəal iştirak edir

Əvvəli 1-ci səh.

"28 gün əvvəl gəlib birinci dozanı vurdurdum. Həmin peyvənddən sonra narahatlığım olmadı, özümü çox yaxşı hiss etdim. Sadəcə mənə peyvənd vurulan zaman dedilər ki, üç gün iynə vurulan yerə su vurmaq olmaz, mən də buna əməl etdim. Nə baş gicəllənməsi, nə qolumda ağrı, nə də başqa bir narahatlıq hiss etmədim. İndi gəlmişəm vaksinin ikinci dozasını vurdurum".

Yaşlı həmsöhbətimiz vurğulayır ki, birinci doza vurulandan sonra sanki daha da yüngülləşib, həm fiziki, həm də mənəvi baxımdan xeyli rahatlaşıb: "Həkimlər də deyirlər ki, bu xəstəlik yaşlıların qənimidir. Şükür Allaha ki, indi peyvənd koronavirusdan canımızı qurtarır. Ötən il pandemiya başlayanda hələ peyvənd yox idi, nə qədər qorunsam da, ürəyimdə narahatlıq olurdu. Hər an düşünürdüm ki, koronavirusa yoluxacam və yaşlı olduğum üçün xəstəliyi pis keçirəcəm, ya da... İndi isə beynim də ürəyim də rahatdır. Bilirəm ki, xəstəliyə yoluxsam da yüngül keçirəcəm. Amma yenə də ehtyatımı əldən vermirəm, çalışıram çox insan olan yerlərə getməyim, maska taxıram, əllərimi tez-tez spirtləyirəm. Qoy bu xəstəlik məndən uzaq olsun, heç zaman yaxınıma düşməsin..."

Elə bu zaman üzərində "Peyvənd otağı" yazılmış qapının açılması və tibb bacısının Gəlinxanım nənəni vaksinasiya üçün otağa çağırması ilə söhbətimiz yarıda qalsa da, peyvəndləmə prosesini izləməyə davam edirik...

### Azərbaycan öndədir

Ümumiyyətlə, koronavirus pandemiyasının planeti çənginə alması ilə insan həyatında sağlamlıqdan başqa ikinci əhəmiyyətli nüansın olmadığı bir daha təsdiqini tapdı. Hazırda sağlamlığımızı təhlükə altında qoyan COVID-19-dan yalnız bir qurtuluş yolu var, o da vaksinasiyadır.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da iki aydan artıqdır əhalinin COVID-19 infeksiyasına qarşı peyvəndlənmə prosesi aparılır. Ölkəmiz həmin prosesə yanvarın 18-dən tibb işçilərinin vaksinasiyası ilə start verib və sonrakı mərhələdə risk qrupuna daxil olan əhali kateqoriyaları peyvənd edilib. Hazırda 40 yaşdan yuxarı olan əhali arasında könüllülük prinsipi ilə vaksinasiya işi aparılır.

Ölkəmizdə vaksinasiya prosesi bütün bölgələrdə tam sürətlə və uğurla davam etdirilir. Elə buna görədir ki, Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verən Azərbaycan peyvəndləmə səviyyəsinə görə MDB ölkələri arasında liderlərdəndir. Son statistik məlumatlara əsasən Azərbaycanda 612 minə yaxın vətəndaşın ilk doza ilə peyvənd olunduğu bildirilir.

Respublikamızda peyvəndlənmənin həyata keçirildiyi xəstəxana və poliklinikalarda TƏBİB-in təlimatlarına uyğun bütün zəruri şərait yaradılmışdır. 26 nömrəli Mərdəkan Birləşmiş Şəhər Xəstəxanasında 4 peyvənd, 2 həkim, 1 müşahidə otağı fəaliyyət göstərir. Girişdə vaksinasiya üçün gələn şəxslərin qeydiyyatı aparılaraq adlarına kart açılır.

Xəstəxananın baş həkiminin müavini Nihat Tağıyev vaksinasiya prosesi ilə bağlı məlumat verərək bildirdi ki, hazırkı dövrə qədər xəstəxanada 5400-ə yaxın peyvənd vurulub. Vurulan peyvəndlərdən 3200-ə yaxını ilk doza, 2 mindən yuxarısı isə təkrar dozadır. Onun sözlərinə görə, bu xəstəxanaya əsasən Mərdəkan, Şüvəlan, Qala və Şağanda yaşayan əhali peyvənd olunmağa gəlir: "Əvvəlcə risk qrupunda olduğu üçün 65 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başladıq. Sonra 50, daha sonra isə 40 yaşdan yuxarı şəxslərə peyvənd vuruldu. Gün ərzində təxminən 250-300 nəfərə yaxın şəxs vaksinasiyadan keçir".

Evdən çıxa bilməyən xəstələr, əlillər, yataq xəstələrinə isə onların istəkləri ilə könüllü olaraq peyvənd vurulduğunu deyən həkim qeyd edir ki, həmin şəxslərin adı Səhiyyə Nazirliyinə verilir və qurumun müəyyən səyyar briqadaları gedib evlərdə vaksinasiya edirlər.

N.Tağıyevin sözlərinə görə, indiyə qədər peyvənd vurduqları şəxslərin heç birində hansısa yan təsir müşahidə olunmayıb və vaksinasiyadan keçənlər özləri də bununla bağlı xəstəxanaya hər hansı şikayət etməyiblər: "Ölkəmizin hər yerində olduğu kimi, bizim xəstəxanamızda da ilk olaraq tibb işçiləri peyvəndləndi, o cümlədən də mən. Onu da bildirim ki, təzəlikcə qanımız yoxlandı və məlum oldu ki, artıq qanımızda koronavirusa qarşı anticisimlər yaranıb. Lakin bununla belə yenə də özümüzü qoruyuruq, maska, sosial məsafə, gigiyena qaydalarına ciddi əməl edirik".

### Vaksin olunduqda ağırlaşmalara rast gəlinmir, xəstəlik yüngül keçir

"Həkim otağı"nın qapısını döyürük. İçəridə növbəti şəxsi müayinə edərək COVID-19-a qarşı peyvənd üçün göstəriş yazan terapevt Röyalə Məhərrəmova ilə danışırıq. Həkim söyləyir ki, vaksinasiyaya gələnləri əvvəlcə bu otaqda qəbul edirlər və müayinədən keçirirlər. Çünki elə xəstəliklər var ki, peyvənd bunun üçün əks göstərişdir. Hansı şəxslərə ki peyvənd göstərişdir, onların kartlarına yazıb peyvəndlənməyə göndərirlər. "Peyvənd otağı"nda vaksinasiya olunandan sonra həmin şəxslər yarım saat "Müşahidə otağı"nda əyləşərək gözləyirlər. Bu müddət ərzində həkimlər onların vəziyyətlərini müşahidə edirlər. Əgər heç bir yan təsir müşahidə edilmirsə, evlərinə yola salınırlar. Bir də 28 gündən sonra ikinci doza üçün yenidən gəlirlər: "Peyvəndləmə üçün əks göstəriş isə şəxsdə temperaturun olması, hazırda COVID keçirməsi, bir də epileptik tutmalar, qıcolmalardır. Çünki bu cür xəstələrin reaksiyalarını bilmirik. Peyvənd zamanı ola bilər ki qorxudan özlərindən getsinlər, yəni təyin etmək çətindir ki, bu reaksiya sırf dərmana qarşıdır, yoxsa öz xəstəliklərinə görədir".

R.Məhərrəmova vurğulayır ki, 3 aya yaxındır vaksinasiya edirlər, amma kimdəsə bununla bağlı yan təsirlərlə rastlaşmayıblar: "Düzdür, vaksinasiyadan keçən bəzi xəstələr deyirlər ki, başgicəllənməmiz oldu. Amma bu, hər kəsdə müşahidə olunan haldır və müvəqqətidir, bir-iki saata keçib gedir, çox nadir hallarda bir gün çəkir, ondan artıq yox".

Röyalə həkim koronavirusun necə qorxulu xəstəlik olduğunu incəliklərinə qədər bilən mütəxəssis kimi əhaliyə müraciət edərək onların mütləq vaksinasiyadan keçməsinin vacibliyini dedi: "Vaksin əhalini xəstələnməkdən, ağırlaşmadan qoruyur. Məsələn, COVID-li xəstələrdə ağırlaşma kimi təngnəfəslik, boğulma, temperatur, halsızlıq yaranır. Hətta bəzən elə olur ki, bu xəstələrin adi bir stəkanı belə qaldırmağa gücləri çatmır, gəzməyə, hərəkət etməyə heyləri qalmır. Lakin vaksin olunduqda bu cür ağırlaşmalara rast gəlinmir, xəstəlik yüngül keçir, onlar sadəcə baş ağrısı ilə bu xəstəliyi ötüşdürə bilirlər. Ona görə də əhalinin gəlib vaksin vurdurması vacibdir".

"Sevindiricidir ki, əvvəllər vaksinlərlə bağlı əhali arasında müəyyən əsassız şübhələr vardısa, demək olar ki, artıq bu hal ortadan qalxıb" söyləyən mütəxəssis deyir ki, hazırda xeyli sayda insan peyvənd üçün gəlib vaksinasiyadan keçir. İkinci doza üçün gələn xəstələr də deyirlər ki, çox yaxşıyıq. Hətta bəzi allergik xəstələr var, onlar da söyləyir ki, yaz fəsli olmağına baxmayaraq, peyvənd sayəsində bizdə allergiya yaranmayıb.

### Hər gün 300 nəfərə yaxın vətəndaş peyvənd olunur

Nəhayət, bizim "Peyvənd otağı" ilə tanışlıq zamanımız yetdi. 1937-ci il təvəllüdlü Rafiq babaya tibb bacısı vaksin vurmağa hazırlaşırdı. Rafiq baba paltarının qolunu yuxarı çirmələyə-çirmələyə gülümsəyərək zarafatından da qalmır və tibb bacısından soruşur: "A qızım, iynə çox incitmir ki? Ömür boyu iynədən qorxmuşam..."

Amma ağ xalatlı tibb bacısının əlləri o qədər yüngül olur ki, Rafiq babanın da iynə "qorxusu" tamamilə aradan qalxır...

84 yaşlı Rafiq Eyvazov Ağdam rayon sakinidir və hazırda müvəqqəti olaraq Şüvəlanda yaşayır. Baba deyir ki, peyvəndə birinci dəfədir gəlir. Qonşularından da xeyli insan vaksinasiya olunub və o da qərar verib ki, mütləq peyvəndlənsin.

Beləcə tibb bacısı Rafiq babanı "Müşahidə otağı"na yola salıb növbəti şəxsi vaksinasiyaya dəvət edir. Biz də bu ərəfədə xəstəxananın tibb bacısı, vaksinasiya üzrə məsul şəxs Leyla Xəlilova ilə danışırıq. Leyla xanım söyləyir ki, hazırda Çinin "CoronaVac" peyvəndindən istifadə edirlər. Həmin peyvəndlər 2-8 dərəcə temperatur arasında soyuducularda saxlanılır. Hər gün səhər saat 9-dan axşam saat 7-yə qədər xəstəxanada 250-300 nəfərə yaxın şəxs vaksinasiyadan keçir: "Əvvəl yaşlıları, sonra 50 yaşdan yuxarıları peyvəndləmişik, indi isə 40 yaşlıları vaksinasiya edirik. Hazırda peyvəndin ikinci dozasını vururuq, amma birinci doza üçün gələnlər də var. Vaksin ehtiyatımız da kifayət qədərdir".

### COVID-ə qarşı tam müdafiə qazanmağın yolu

"Müşahidə otağı"nda vaksin olunanlarla söhbət edirik. Özlərini yaxşı hiss etdiklərini söyləyirlər. Müəyyən olunan yarım saatlıq vaxt bitdikdən sonra bir-bir xəstəxananı tərk edirlər. Bəziləri artıq ikinci dozanı vurdurduqları üçün daha bura gəlməyəcəklər, amma birinci dozanı vurduranlar 28 gündən sonra yenidən bu ünvana üz tutub peyvəndlənərək COVID-ə qarşı tam müdafiə qazanacaqlar...

Tibb mütəxəssisləri koronavirus infeksiyasının bütün ştamlarına qarşı ən effektli qoruyucu mexanizmin vaksinasiya olduğu qənaətindədirlər. Bu bir reallıqdır ki, dünya əhalisi vaksinasiya sayəsində koronavirusa qarşı kütləvi immunitet qazanmayınca bu qlobal bəladan heç cür yaxa qurtara bilməyəcəyik.

Elə buna görə də vətəndaşlarımız "gözəgörünməz" düşmənlə mübarizədə qalib gəlmək üçün elə bu gün sözügedən xəstəxanada müşahidə etdiyimiz kimi, ona qarşı qoruyucu sipər olan peyvəndləməyə üz tutmalıdırlar, vaksinasiyanın həyati vacib olduğunu bilməlidirlər. Bu prosesdə aktiv iştirak etməli və maska istifadəsinə, sosial məsafə saxlanılmasına, gigiyena qaydalarına riayət etməlidirlər.

Artıq biz də 26 nömrəli Mərdəkan Birləşmiş Şəhər Xəstəxanasında vaksinasiya prosesi ilə bağlı reportajımızı yekunlaşdırıb işə tələssək də, ayaqüstü yenidən "Müşahidə otağı"nın qapısından içəri boylanmaqdan da özümüzü saxlaya bilmirik. Amma 84 yaşlı Rafiq babanın digər peyvəndlənən şəxslərlə deyibgülərək danışdığını və yarım saatlıq həkim müşahidəsi bitdiyi üçün buranı tərk etməyə hazırlaşdığını görərək ürək rahatlığı ilə yolumuza davam edirik...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***



# Dövlət qulluqçuları üçün "Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" adlı layihəyə start verilib





Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın Fəaliyyət Planında dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bununla əlaqədar dövlət idarəçiliyi sahəsində dövlət qulluqçularının bilik və bacarıqların inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) təsdiqlənmiş proqrama uyğun olaraq tədbirlər həyata keçirir.

Bu barədə AZƏRTAC-a DİA-dan məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq memorandumu çərçivəsində aprelin 6-dan ilin yeni tədbirlər proqramı təsdiqlənib və həyata keçirilir. Layihə 2021-ci ilin sonunadək davam edəcək.

Bu gün baş tutan ilk tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik U.Ələkbərov "Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" adlı mühazirə ilə çıxış edib.

Rektor Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar sahələrdə uğurlu inkişaf nümayiş etdirdiyini və müstəqilliyinin hər növbəti ili ölkənin yeni yüksək nailiyyətləri ilə bağlı xəbərlərlə müşayiət olunduğunu bildirib. Akademik qeyd olunan uğurların kökündə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının durduğunu xüsusi vurğulayıb.

DİA-nın rektoru diqqətə çatdırıb ki, XXI əsrin çağırışlarının həllinə yönəlmiş dünya əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. 44 günlük Vətən müharibəsi və ölkənin zəfəri bunu bir daha nümayiş etdirdi.

Seminar iştirakçıları, həmçinin Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıb. Xüsusi vurğulanıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müstəsna xidmətləri var. Mehriban Əliyevanın insan potensialının inkişafı, inkişaf proseslərinin inklüzivliyinin təmini sahəsində təşəbbüsləri, onun rəhbərliyi altında gerçəkləşdirilən iqtisadi, sosial, humanitar və mədəni layihələr Azərbaycan Respublikasının sosial indikatorlarının yüksək qalmasına, həmçinin gələcək sosial tərəqqiyə imkan yaradıb.

Onlayn seminarın yekununda iştirakçıların sualları cavablandırılıb.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Yaponiyanın ölkəmizdəki səfiri "AzerGold"un Daşkəsən rayonundakı fəaliyyəti ilə tanış olub





Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) fəaliyyəti ilə daha yaxından tanış olmaq məqsədilə Daşkəsən rayonuna səfər edib.

"AzerGold" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, səfər çərçivəsində əvvəlcə "Daşkəsən" Dəmir Filizi Sahəsinin ərazisinə ümumi baxış keçirilib. Yaponiyalı diplomata regionun ən nəhəng dəmir filizi yataqları kompleksində aparılan geoloji kəşfiyyat işləri barədə məlumat verilib.

"AzerGold"un İdarə Heyəti sədrinin müavini Xəyyam Fərzəliyev yatağın istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması məqsədi ilə yataqların mövcud resurs və ehtiyatlarının beynəlxalq standartlara uyğun yenidən qiymətləndirildiyini, işlərin cari ilin sentyabr ayınadək yekunlaşdırılacağını yaponiyalı qonağın diqqətinə çatdırıb. Qeyd edilib ki, yatağın yenidən istismarı və istehsal prosesinin dünya standartlarına uyğun təşkili ilə bölgənin dayanıqlı sosial inkişafına, eləcə də ölkə iqtisadiyyatına mühüm töhfələr verilə bilər.

Daha sonra səfir C.Vada "Çovdar" Filiz Emalı Sahəsində olub. Mədəndə istehsalat prosesi və yaradılan iş şəraiti ilə tanış olan diplomat istehsalatın bütün mərhələlərini virtual qaydada izləyib. Bunun ardınca səfir mədən ərazisində suxurların partladılması, metal tökümü və xəlitələrin hazırlanması prosesi ilə əyani şəkildə tanış olub. Səfirə qiymətli metalların ixracatı və şirkətin ölkə iqtisadiyyatına verdiyi töhfələr barədə ətraflı məlumat verilib.

Daşkəsən səfərindən məmnun qaldığını, rayondan zəngin təəssüratlarla ayrıldığını bildirən C.Vada "AzerGold" QSC-nin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib. Səfir iki ölkə arasında iqtisadi əməkdaşlığın qiymətləndirilməsi baxımdan səfərin olduqca faydalı olduğunu deyib.

# Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin korrupsiya cinayətlərinə yol verməkdə təqsirləndirilən iki vəzifəli şəxsi həbs edilib

Azərbaycan Respublikasının ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin vəzifəli şəxsləri tərəfindən qanunsuz hərəkətlərə məruz qalmalarına dair ayrı-ayrı şəxslərin müraciətləri ilə əlaqədar əvvəllər başlanmış cinayət işi üzrə istintaq davam etdirilir. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, istintaqla Şixəliyev Mövlam Məmmədismayıl oğlunun MTN-nin İstintaq Baş İdarəsinin rəisi vəzifəsində işlədiyi dövrdə tabeliyində olan şəxslərlə birlikdə 9 halda cinayət işləri üzrə sübutları saxtalaşdırmasına, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək müxtəlif korrupsiya cinayətləri törədərək külli miqdarda rüşvət tələb etməsinə və almasına, 4 halda isə ayrı-ayrı şəxslərin külli miqdarda əmlaklarını və pul vəsaitlərini hədə-qorxu ilə tələb edərək ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

Həmçinin istintaqla həmin nazirliyin Hərbi əks-Kəşfiyyat İdarəsinin sabiq rəisi Şirinov Nizami Talış oğlunun qeyd olunan vəzifədə işlədiyi müddətdə müxtəlif şəxslərdən MTN-nin Akademiyasına qəbul etdirmək, xidmət yerini dəyişdirmək, habelə tabeliyində olan əməkdaşın işdən çıxarılması üçün müvafiq tədbirlərin görülməməsi, xidmət üzrə ümumi himayədarlıq edilməsi müqabilində 3 halda külli miqdarda rüşvət tələb edərək almasına, 3 halda isə ayrı-ayrı şəxslərin külli miqdarda əmlaklarını və pul vəsaitlərini hədə-qorxu ilə tələb edərək ələ keçirməsinə, habelə vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr müəyyən edilib.

Mövlan Şıxəlıyev və Nizami Şirinov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, onlara Cinayət Məcəlləsinin 182.3.1-ci, 182.3.2-ci (ağırlaşdırıcı hallarda hədə qorxu ilə tələb etmə), 294.3-cü (sübutları saxtalaşdırma), 311.3.1-ci, 311.3.2-ci, 311.3.3-cü, 311.3.4-cü (ağırlaşdırıcı hallarda rüşvət alma), 341.2.1-ci, 341.2.3-cü (ağırlaşdırıcı hallarda vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə səlahiyyətlərini aşma) maddələri ilə ittiham elan edilib və barələrində Bakı Hərbi Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Hakimiyyət nümayəndəsinin adından istifadə edən şəxsin qanunsuz əməlləri ifşa olunub

Törətdikləri qanunsuz əməllərlə dövlətin nüfuzuna və korrupsiyaya qarşı mübarizə sahəsində görülən kompleks tədbirlərə kölgə salan şəxslərə qarşı prokurorluq orqanları tərəfindən ardıcıl tədbirlərin görülməsi davam etdirilir. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Quliyev Ziyad Tofiq oğlunun özünü dövlət orqanının rəhbər vəzifəli şəxsi kimi təqdim edərək vəzifəli şəxsdən pul tələb etməsi barədə daxil olmuş məlumat Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Bununla əlaqədar Baş İdarə tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə Ziyad Quliyevin özünü dövlət orqanında şöbə müdiri vəzifəsində işləyən şəxs kimi təqdim edərək, Bakı şəhəri ərazisində yerləşən xəstəxanaların birinin baş həkimindən guya həmin tibb müəssisəsinin işçilərinin qanunazidd əməllərindən olunmuş şikayətlərin ictimailəşdirilməməsi adı ilə ümumilikdə tələb etdiyi 7 min manat pul vəsaitinin 2 min manatını almasına əsaslı şübhələr müəyyən olunub.

Bu il aprelin 5-də Ziyad Quliyevin ətrafında keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində, sonuncu həmin xəstəxananın baş həkimindən tələb etdiyi pul vəsaitinin qalan 5 min manatını rüşvət kimi alan zaman cinayət başında yaxalanıb.

Qeyd edilən faktlar üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə), 32.4-cü, 312.1-ci (rüşvət verməyə təhrik etmə) və 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla dələduzluq) maddələri ilə cinayət işi başlanıb, Ziyad Quliyevə həmin maddələrlə ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq davam etdirilir.

Ukraynanın şərqində - separatçı Donetsk və Luqansk vilayətlərində son günlər gərginlik müşahidə olunur. Ötən ilin iyulunda imzalanmış atəşkəs sazişi əvvəlki dövrlərə nisbətən tez-tez pozulur. Sabitliyin pozulmasında münaqişə tərəfləri bir-birini günahlandırırlar. Beynəlxalq ictimaiyyət hadisələrin gedişini həyəcanla izləyir və vəziyyətin nəzarət altından çıxmasından narahatlıq ifadə edir.



# Ukraynanın şərqində vəziyyət gərginləşir

## Münaqişə iştirakçıları hələlik söz dueli aparırlar

Gərginliyin artmasına əsas səbəb kimi ötən ayın 26-da Donetsk vilayətinin Şumı yaşayış məntəqəsinin yaxınlığında separatçıların Ukrayna Silahlı Qüvvələrinin mövqeyini minaatanlardan atəşə tutulması nəticəsində dörd ukraynalı hərbçinin həlak olması və ikisinin yaralanması göstərilir. Ukrayna hakimiyyəti və Donetskdəki separatçı rejim bir-birini gərginliyi artırmaqda ittiham etmişlər. Eyni zamanda Donetsk və Luqansk separatçıları Kiyevi Minsk razılaşmalarına zidd olaraq münaqişə zonasındakı təmas xəttində hücum və təxribat hərəkətlərinə qoyulmuş məhdudiyyətlərdən tamamilə imtina etməkdə günahlandırmışlar.

Bütün bunlardan sonra Rusiyanın Ukraynanın şərq sərhədinə təxminən dörd min hərbçi göndərməsi vəziyyəti daha da gərginləşdirmişdir. Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Ruslan Xomçakın verdiyi məlumata görə, söhbət döyüşə hazır vəziyyətə gətirilmiş tabor taktiki qruplarından gedir. Ukrayna mətbuatı da sərhədə Rusiya hərbi texnikasının yeridilməsindən xəbər vermişdir.

Ukraynanın şərq sərhədi boyunca yaranmış vəziyyət Moskva və Kiyev tərəfindən fərqli qiymətləndirilir. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirmişdir ki, Rusiyanın qoşunlarını ölkə hüdudları daxilində özünün istədiyi kimi yerləşdirmək hüququ var və bu, heç kimi narahat etməməlidir. O əlavə etmişdir ki, Rusiya sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün lazım olan tədbirlər görür: "Rusiya Federasiyasının sərhədləri boyunca NATO ölkələrinin silahlı qüvvələrinin, digər birliklərin, ayrı-ayrı ölkələrin artan fəallığı nəzərə çarpır. Bütün bunlar sayıq qalmağa vadar edir". Eləcə də Kreml Kiyevin "Ukraynada vətəndaş müharibəsinin yenidən başlamasına" gətirib çıxara biləcək "təxribat xarakterli addımlar atacağından" narahatdır.

Rusiyanın təmas qrupunda səlahiyyətli nümayəndəsi Boris Qrızlov da vəziyyətin gərginləşməsində Kiyevi günahkar sayır. O bildirmişdir ki, Ukrayna hərbçiləri yaşayış məhəllələrində hərbi texnika yerləşdirməkdə davam edirlər: "Dinc əhali pərdəsi altında aparılan hərbi əməliyyatlar əslində müharibə cinayətləridir. Ukrayna hakimiyyəti, Ukrayna Silahlı Qüvvələrinin komandanlığı bu cinayətlərin törədilməsinə mümkün qədər çox əsgər cəlb etməyə çalışırlar".

Ukraynanın separatçı vilayətlərində və ölkənin şərq sərhədində yaranmış vəziyyət Kiyevi və Qərb dövlətlərini ciddi düşündürür. Ukrayna hərbi komandanlığı bəyan etmişdir ki, Rusiya Ukrayna sərhədi boyunca və işğal olunmuş ərazilərdə 28 tabor taktiki qrupu cəmləşdirmişdir, təlimlərə hazırlaşmaq adı altında daha 25 tabor taktiki qrupu cəlb etməyi planlaşdırır. Kiyev hesab edir ki, ölkənin şərq sərhədi boyunca bu qədər qoşunun mövcudluğu Ukrayna dövlətinin hərbi təhlükəsizliyinə təhdiddir. Rusiya tərəfi ön hərbi hissələri kəşfiyyat qrupları və snayper cütləri ilə gücləndirir, həmçinin Rusiya Silahlı Qüvvələrindən təlimatçıların cəlb edilməsi ilə şəxsi heyətə təlim verir. Həmçinin Rusiya qoşunları müəyyən istiqamətlərdə, xüsusilə Ukraynanın işğal olunmuş ərazilərindəki yaşayış məntəqələrində döyüşə hazır vəziyyətə gətirilmiş növbətçi artilleriya bölmələri saxlayır.

Rusiya qoşunlarının Ukrayna sərhədinin yaxınlığında fəallaşması beynəlxalq aləmdə getdikcə daha çox tənqid olunur. NATO-nun mətbuat katibi Almaniyanın "Die Welt" qəzetinə müsahibəsində bildirmişdir ki, Rusiyanın "sabitliyi pozan hərəkətləri" Ukraynanın şərqində gərginliyi azaltmaq üçün göstərilən bütün səyləri sarsıdır. O, Şimali Atlantika alyansının Ukraynanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini vurğulamışdır.

Donetsk vilayətində separatçı silahlılarla Ukrayna hərbçiləri arasında döyüşlər yenidən başlayandan sonra ABŞ Silahlı Qüvvələrinin Avropa Komandanlığı döyüş hazırlığını ən yüksək səviyyəyə qaldırmışdır. Vaşinqton bəyan etmişdir ki, Ukraynanın şərqində gərginliyin artacağı təqdirdə Kiyevi düşmən qarşısında tək qoymayacaq.

Bir neçə gün əvvəl Almaniya və Fransa Xarici İşlər nazirlikləri Ukraynanın şərqində münaqişə tərəflərini təmkinli olmağa və gərginliyi dərhal azaltmağa çağırmışdır. Avropa İttifaqının (Aİ) Xarici Siyasət və Təhlükəsizlik üzrə ali nümayəndəsi Jozep Borrel məlumat vermişdir ki, bu məsələni Aİ ölkələrinin xarici işlər nazirlərinin növbəti görüşündə Ukrayna tərəfi ilə müzakirə etmək niyyətindədir.

Göründüyü kimi, Ukraynanın separatçı vilayətlərində və ölkənin şərq sərhədində yaranmış gərginlik fakt kimi ortadadır. Bəzi müşahidəçilər regionda cərəyan edən hadisələri əzələ nümayişi kimi sayır, yeni müharibənin alovlanmasını istisna edirlər. Hələliksə tərəflər söz dueli aparırlar.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Silahlı Qüvvələrin Hərbi Akademiyasının hazırladığı "Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin regional aspektləri" dərsliyi çapdan çıxıb




Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının hazırladığı "Azərbaycan Respublikasının Milli Təhlükəsizliyinin regional aspektləri" dərsliyi işıq üzü görüb. AZƏRTAC xəbər verir ki, nəşrdə qloballaşan dünyada, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında olduqca aktual olan təhlükəsizlik problemləri və təhdidlər tədqiqatın predmetinin əsasını təşkil edir. Dərslikdə milli təhlükəsizliyin regional aspektlərinin mahiyyəti ətrafında təhlillər aparılır. Bu zaman ənənəvi və hibrid təhdidlərə, milli maraqlara xüsusi diqqət yetirilir. Azərbaycanın milli təhlükəsizlik siyasətinin səciyyəvi xüsusiyyətləri, milli təhlükəsizlik siyasətinin regional aspektləri nəzərdən keçirilir.

Kitabın həmmüəllifləri Vüqar Məmmədzadə, Xəyal İskəndərov, rəyçiləri Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, "Azərbaycan Tarixçiləri" İctimai Birliyinin üzvü, tarix elmləri doktoru Nurulla Əliyev, Hərbi Akademiyanın Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru Mehman Süleymanov, elmi redaktoru siyasi elmlər doktoru Fətəli Abdullayevdir.

Nəşrin "Cənubi Qafqazda regional və milli təhlükəsizlik: real təhdidlər kontekstində" adlı birinci fəslində təhlükəsizlik anlayışlarının nəzəri müqayisəsi, "Hibrid müharibələr və Ermənistanın Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı hibrid təhdidləri" adlı ikinci fəslində hibrid müharibələrinin aparılmasını şərtləndirən amillər, bu müharibənin konseptual kontraksiyası, Ermənistanın Azərbaycana qarşı hibrid təhdidləri ilə bağlı məsələlərə yer ayrılıb.

"Cənubi Qafqazın regional təhlükəsizliyi və Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları" adlı üçüncü fəsil Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdidlərə, "Cənubi Qafqazda böyük güclərin toqquşan geostrateji maraqlarının regional təhlükəsizliyə təsiri" adlı dördüncü fəsil regional təhlükəsizlik mühitinə dair məsələlərə həs olunub.

Dərslik Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri, bakalavr, magistr, adyunkt, zabit və pedaqoqları üçün nəzərdə tutulub.

# ABŞ-da koronavirusun ikili mutasiyalı "Hindistan ştammı" aşkar edilmişdir

ABŞ-da ilk dəfə koronavirusun ikili mutasiyalı Hindistan variantına yoluxma halı qeydə alınıb. Virus San Fransisko körfəzi yaxınlığında aşkar edilib. Bu barədə "San Francisco Chronicle" qəzeti yazır.

Nəşrə görə, "ikili mutant" infeksiyasına dair məlumatlar Stanford klinik virusologiya laboratoriyasının mütəxəssisləri tərəfindən təsdiqlənmişdir. Bununla yanaşı, laboratoriya rəhbərinin dediyinə görə, bu ştamma yoluxma ehtimal olunan daha yeddi hal yoxlanılır və nəticələr cari həftə ərzində məlum olmalıdır.

Hazırda "Hindistan ştammı" nın vaksinlərə daha yoluxucu və ya davamlı olub-olmaması barədə dəqiq məlumat yoxdur. Lakin ekspertlər onun yüksək yoluxucu ola biləcəyini qəbul edirlər, çünki Hindistanın Maharaştra ştatında bütün koronavirus xəstələrinin 20 faizi həmin virusa yoluxmuşdur. Eyni zamanda mütəxəssislər mövcud vaksinlərin bu ştamma qarşı effektiv olacağını güman edirlər.

# Beynəlxalq aləm

## BMT İranın nüvə proqramı ilə bağlı yeni danışıqların başlanılmasını alqışlayıb

BMT-nin baş katibi Antonio Quterreş İranın nüvə sazişi üzrə birgə komissiyanın toplantısına dəstək nümayiş etdirib. Bu barədə BMT baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik bildirib.

"İranın nüvə proqramı ilə bağlı Birgə Hərtərəfli Fəaliyyət Planının bütün üzvlərinin konstruktiv dialoq aparmaq və bu vacib beynəlxalq razılaşmanı qorumaq üçün diplomatiyadan istifadə etməklə göstərdikləri fəal səyləri alqışlayırıq", - deyə Düjarrik qeyd edib.

Qeyd edək ki, aprelin 2-də İranın nüvə proqramına dair Birgə Hərtərəfli Fəaliyyət Planına qatılan ölkələr virtual görüş keçirib. AB xarici siyasət xidmətinin məlumatına görə, onlar ABŞ-ın Birgə Hərtərəfli Fəaliyyət Planına qayıdış perspektivinə və nüvə anlaşmasını qorumaq öhdəliklərinə müsbət təsir etməyə hazır olduqlarını bir daha bəyan ediblər. Nüvə sazişi üzrə komissiyanın növbəti iclası isə aprelin 6-da Vyanada keçirilib.

## Peyvənd olunmuş zəvvarlar Ramazanda Həccə gedə biləcəklər

Səudiyyə Ərəbistanı koronavirusa qarşı peyvənd olunmuş zəvvarlara Ramazan ayında Həcc ziyarətinə getməyə icazə verəcək. Bu barədə "Əl-Ərəbiyə" telekanalı xəbər verir.

Səudiyyə Ərəbistanının Həcc məsələləri üzrə Nazirliyində bu məlumatı təsdiqləyiblər.

Bildirilir ki, Həcc ziyarətinə getmək istəyənlər peyvəndin hər iki dozasını vurdurmalıdırlar.

# Gəncədə Vətən müharibəsi qaziləri ziyarət olunub




"Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən icra olunan "Böyük Qayğı" proqramı çərçivəsində Gəncə şəhərində yaşayan Vətən müharibəsi qaziləri ziyarət olunub.

Azərbaycan Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, proqramın məqsədi Vətən müharibəsində sağlamlığını itirmiş qazilərimizi qayğı ilə əhatə etmək, onların sosial reabilitasiyasına dəstək olmaq, qəhrəman qazilərimizi cəmiyyətdə, xüsusilə gənclər arasında tanıtmaq, gənclərin Vətən üçün döyüşən insanlara dəstəyini göstərməkdir. Təşkilatın idarə heyətinin üzvlərinin və könüllülərin iştirakı ilə keçirilən görüşlər zamanı qəhrəman qazilərimizin vəziyyəti ilə maraqlanılıb, proqram çərçivəsində könüllülər tərəfindən onlar üçün həyata keçiriləcək fəaliyyətlər haqqında məlumatlar çatdırılıb.

Adıçəkilən proqramla yanaşı, təşkilat tərəfindən davamlı olaraq gənc qazilərin fərdi inkişafı, cəmiyyətə adaptasiyası, sosial-psixoloji reabilitasiyası istiqamətində layihələrin icrası planlaşdırılır. Proqrama qoşulmaq və təşkilatın gələcək layihələrində iştirak etmək istəyən gənclər "boyukqayidish.az" saytı və ictimai birliyin sosial media hesabları və ya info@boyukqayidish.az elektron poçt ünvanı vasitəsilə əlaqə yarada bilərlər.

"Böyük Qayğı" proqramı "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının tərəfdaşlığı ilə icra olunur.

# Qazilər Türkiyədə protezlə təmin olunurlar




Müxtəlif səbəblərə görə əlil olan insanlara ortez-protez dəstəyi verən Beynəlxalq Həkimlər İttifaqı Qarabağ torpaqlarının erməni işğalçılarından təmizlənməsi zamanı əzalarını itirən Vətən müharibəsi qazilərini Türkiyəyə apararaq onları protezlərlə təmin etməyə başlayıb.

Onlar Bakıda üç ölçülü skanerdən istifadə edərək xəstələrin protez ölçülərini götürəndən sonra protez hazırlanması üçün İstanbuldakı mərkəzə göndərib.

Türkiyənin Azərbaycandakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, 3D skanerlə aparılan ölçmələr sayəsində xəstələr həmin ölkəyə getmədən protezlər hazırlanıb. Layihə çərçivəsində Türkiyəyə gedən əlillərdən biri təyyarədən enən kimi protezlə təmin olunub. Hava limanında protezlə təmin olunan Qarabağ qazisi hoteldə ayağa qalxaraq yeriməyə başlayıb. Əlillərin İstanbulda lazımi fiziki müalicə və reabilitasiya prosesləri həyata keçiriləndən sonra geri qayıdacaqlar.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yuyucu və təsərrüfat mallarının satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50 (əlli) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir);***
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.03.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019 və 2020-ci illər üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.03.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 27.04.2021-ci il saat 15:00-a qədər və tender təklifini 05.05.2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 06.05.2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "dəftərxana və təsərrüfat malları"nın kotirovka üsulu ilə satın alınması üzrə 05 aprel 2021-ci il tarixli yekun protokoluna əsasən "İntellekt M.A" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 05 aprel 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 15 yanvar 2021-ci il tarixli sayında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "İT-Kiber Təhlükəsizlik" layihəsi üzrə daxili bazar araşdırmasının aparılması xidmətinin satın alınması məqsədilə elan edilmiş təkliflər sorğusunda "Sage Solutions" MMC qalib elan olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziyа" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

"ASK Ayaqqabı Fabriki" MMC-nin 04 mart 2021-ci il tarixdə elan olunmuş pambıq parçaların satın alınması ilə bağlı keçirilən təkliflər sorğusunun qalibi "EYLAS ÖĞ" MMC olmuşdur.

Qalib şirkətlə 24156.60 AZN (ƏDV daxil) məbləğdə müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"ASK Ayaqqabı Fabriki" MMC-nin 04 mart 2021-ci il tarixdə elan olunmuş qoyma içliyinin alınması üzrə elektron açıq tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən iddiaçıların sayı üçdən az olduğu üçün tenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Pedaqoji Universiteti Yumşaq inventarların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 493-15-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 06.04.2021-ci il saat 13:50-dən 08.04.2021-ci il saat 13:50-dək qəbul olunur.

Ünvan: Üzeyir Hacıbəyov, 68. Telefon nömrəsi: +99412 493-15-01
E-mail: maliye.adpu@gmail.com

***Tender komissiyası***

## Azərbaycan Dövlət Pedaqoji Universiteti Abadlıq işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 493-15-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 06.04.2021-ci il saat 13:55-dən 08.04.2021-ci il saat 13:55-dək qəbul olunur.

Ünvan: Üzeyir Hacıbəyov, 68. Telefon nömrəsi: +99412 493-15-01
E-mail: maliye.adpu@gmail.com

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova bacısı

**AĞAZADƏ ALCANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mətbuat Şurası İdarə Heyətinin üzvləri Milli Məclisin deputatı Hikmət Məmmədova atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədova atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiyanın üzvləri Milli Məclisin deputatı Hikmət Babaoğluna atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "2 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC-nin direktoru Rəşadət Eyvazova qızı

**LAMİYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Hikmət Məmmədova atası

**BABA MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi məhkəmənin əməkdaşı Elnarə Heydərovaya atası

**AYDIN HEYDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5102
Sifariş 616
Qiyməti 40 qəpik